# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 57 (3295) Cümə / 19-22 iyun 2020-ci il Qiymәti 40 qәpik


## Qətl

■ **İyunun 17-də saat 23 radələrində paytaxtın Yasamal rayonu ərazisində 1985-ci il təvəllüdlü Cəlal Hüseynovun naməlum şəxs və ya şəxslər tərəfindən bıçaqlanaraq öldürülməsi barədə məlumat daxil olub.** Yasamal Rayon Prokurorluğundan hafta.az-a verilən məlumata görə, dərhal prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib. Faktla bağlı Yasamal Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. İş üzrə müvafiq ekspertizalar təyin edilib və digər zəruri istintaq-əməliyyat tədbirləri aparılıb. Hazırda cinayəti törətmiş şəxs və ya şəxslərin dairəsinin müəyyən edilərək istintaqa cəlb olunması istiqamətində təxirəsalınmaz istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

## Qəza

■ **İyunun 18-də saat 01 radələrində Nərimanov rayon ərazisində paytaxt sakini 1969-cu il təvəllüdlü Qəhrəman İmanovun idarə etdiyi "Azsamand" markalı 99-GV-137 dövlət qeydiyyat nişanlı avtomobil hərəkətdə olarkən aşıb.** Hadisə nəticəsində Q. İmanov aldığı xəsarətlərdən hadisə yerində ölüb. Nərimanov Rayon Prokurorluğundan hafta.az-a verilən məlumata görə, hadisə yerinə cəlb olunan FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasetmə qüvvələri tərəfindən sıxılı vəziyyətdə qalan Q.İmanovun meyiti deformasiyaya uğrayan avtomobildən çıxarılıb. Prokurorluq və polis əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, o cümlədən digər zəruri hərəkətlər yerinə yetirilib. Faktla bağlı Nərimanov rayon Polis İdarəsinin İstintaq şöbəsində Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və nəqliyyat vasitələrinin istismarı qaydalarını pozma, ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb. Hazırda iş üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

■ **Ağdamda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.** Hadisə rayonun Alıbəyli kəndi ərazisində qeydə alınıb. Əliyev Şamil Zahid oğlunun idarə etdiyi "Mercedes" markalı avtomobil qarşıdan gələn Rzayev İbrahim Hidayət oğlunun idarə etdiyi "Mercedes Vita" markalı avtomobillə toqquşub. Nəticədə Şamil Əliyevin idarə etdiyi avtomobildə olan sərnişin, 1972-ci il təvəllüdlü Baxşalıyev Sərvan Telman oğlu hadisə yerində həyatını itirib. Hər iki sürücü Şamil Əliyev və İbrahim Rzayev müxtəlif dərəcəli bədən xəsarəti alaraq Ağdam Mərkəzi Rayon Xəstəxanasına çatdırılıb. Faktla bağlı araşdırma aparılır.

■ **Bakıda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, iyunun 17-də saat 17 radələrində Suraxanı rayonunun Hövsan qəsəbəsi ərazisində İsmayıllı rayon sakini E.Mirzəyev idarə etdiyi "TOFAŞ" markalı avtomobili yolun kənarındakı beton dirəyə vurub. Nəticədə avtomobildəki sərnişinlərdən Bakı şəhər sakin Natiq Kazımov hadisə yerində ölüb. Suraxanı Rayon Polis İdarəsi tərəfindən araşdırma aparılır.

# Xüsusi karantin rejimi avqustun 1-dək uzadılıb




***"Ölkədə epidemioloji vəziyyət təhlil olunub". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib. L.Abdullayeva deyib ki, xüsusi karantin rejiminin avqustun 1-dək uzadılması barədə qərar qəbul olunub.***

"Birinci klastr üzrə ciddi karantin rejimi tətbiq oluncaq". Leyla Abdullayeva bildirib. L. Abdullayeva deyib ki, 21 iyun saat 00.00-dan 5 iyul saat 6.00-dək ciddi karantin rejimi tətbiq olunacaq: "Bakı, Sumqayıt, Lənkəran, Yevlax, Cəlilabad, Abşeron, Gəncə və Masallıda ciddi karantin rejimi tətbiq olunacaq".

"SMS xidməti istifadəyə veriləcək, ictimai iaşə obyektlərində yerində xidmətlər dayandırılacaq". Leyla Abdullayeva bildirib.

L. Abdullayeva deyib ki, muzey və sərgilərin fəaliyyəti və açıq havada idman oyunları dayandırılacaq. O nəzərə çatdırıb ki, 65 yaş və daha yuxarı yaşlı insanların evdən çıxması məhdudlaşdırılmır: "Ancaq bu insanlar mümkün qədər evlərində təcrid vəziyyətində qalsınlar, bunu tövsiyə edirik. "Bakı Metropoliteni"nin fəaliyyəti, bulvar, park və istirahət məkanlarına giriş də məhdudlaşdırılmır".

"Atılan addımlar infeksiyanın sürətinin azaldılmasına xidmət edir". Leyla Abdullayeva deyib ki, koronavirusa yoluxma və sağalanlar arasında fərq sərt karantin rejiminin tətbiqini tələb edir: "Hamımız dərk etməliyik ki, tətbiq olunan bu qaydalar infeksiyanın aradan qaldırılması demək deyil. Vaksin tapılana qədər atılan addımlar infeksiyanın yayılma sürətini azaltmağa xidmət edir".

**Qərar**

21 iyun gecə saat 00:00-dan 5 iyul səhər saat 06:00-dək ciddi karantin rejiminin tətbiqi barədə qərar verilib. Leyla Abdullayeva bildirib. Onun sözlərinə görə, evdən çıxma SMS xəbərdarlıq və xüsusi icazə əsasında olacaq. L.Abdullayeva məhdudiyyət tətbiq ediləcək sahələri açıqlayıb: "Məhdudiyyətlərə dövlət və özəl təşkilatlarla işləyənlərlə bağlı məhdudiyyətlər, yeni müxtəlif vaxtlarda işə başlanılması, işçi heyətin həftəlik əsasda 3 qrupa bölünməsi, ticarət mərkəzlərinin fəaliyyətinin dayandırılması, ictimai iaşə obyektlərində müştərilərə yerində xidmətlərin dayandırılması, bərbərxanalar, gözəllik salonlarının fəaliyyəti və kosmetik xidmətlər, o cümlədən bu sahədə müştərilərin evində və ya digər məkanlarda xidmətlərin dayandırılması, muzey və sərgi salonlarının fəaliyyətinin dayandırılması, malların satışı və xidmətlərin göstərilməsi ilə bağlı istisnalar nəzərə alınmaqla məhdudiyyətlərin tətbiqi, eləcə də açıq havada idman oyunları daxildir. Məlum olduğu kimi, 1 iyundan onsuz da qüvvədə olan bəzi məhdudiyyətlər var idi ki, həmin məhdudiyyətlər də bu zaman çərçivəsində saxlanılır.

ardı səh. 3



# Nazirliyin 25 əməkdaşı COVİD-19-a yoluxdu

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 25 əməkdaşı koronavirus (COVİD-19) infeksiyasına yoluxub. Bu barədə hafta.az-a nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov deyib.** Onun sözlərinə görə, onlardan 3-ü Dövlət Məşğulluq Xidmətinin işçisi (1 nəfər 5 saylı ərazi Məşğulluq Mərkəzinin, 1 nəfər 4 saylı ərazi Məşğulluq Mərkəzinin, 1 nəfər Şəmkir rayon Məşğulluq Mərkəzinin əməkdaşıdır); 6-sı Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin işçisi,16 nəfər isə Dövlət Sosial Müdafiə Fondunun işçisidir (1 nəfər Fondun Aparatının, 11 nəfər Qobustan şəhər şöbəsinin, 4 nəfər Yevlax şəhər şöbəsinin əməkdaşıdır).

Nazirlik rəsmisi qeyd edib ki, xəstələrin vəziyyəti yaxşıdır və müalicələri davam edir: "Hazırda nazirlik əməkdaşlarının virusdan qorunması üçün ciddi profilaktik tədbirlər davam edir, bu istiqamətdə maarifləndirmə və digər zəruri tədbirlər görülür. Nazirlik də hər kəsi aidiyyəti qurumların çağırışlarına ciddi əməl etməyə, virusdan qorunma üçün tətbiq edilən izolyasiya və gigiyenik tədbirləri gündəlik həyat tərzinə çevirməyə çağırır".



# Azərbaycan-İran sərhədində silahlı insident - ölən var

**Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir.**

Dövlət Sərhəd Xidmətinin Mətbuat Mərkəzindən hafta.az-a verilən məlumata görə, 2020-ci ilin 17 iyun tarixində saat 21:40 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Cəlilabad ra□yonunun Kürünc kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazi□sində 3 nəfər naməlum şəxsin İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində dövlət sərhədini pozması sərhəd naryadı tərəfin□dən aşkar olunub. Sərhəd pozucularının silah və gecə görmə cihazları ilə silahlanması, onlardan birinin üzərində içərisində narkotik vasitə olması ehtimal edilən 1 ədəd böyük kisədə yük müşahidə edilib. Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb, İİR sərhədçiləri hadisə haqqında məlumatlandırılıb. Sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmayıb, sərhəd naryadına qarşı av□tomat silahdan və "Vinçester" tipli tüfəngdən atəş açaraq sərhədçilərin həya□tına qəsd ediblər.

Sərhəd naryadı tərəfindən "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq silah tətbiq olunub, sərhəd pozucularından biri güllə yarası alıb və İİR ərazi□sinə qaçmaq məqsədilə sərhəd çayı olan "Bolqarçay"ı keçərkən suda ölüb. Sərhəd pozucusunun cəsədi İran sərhədçiləri tərəfindən sudan çıxa□rılıb. Digər sərhəd pozucuları ərazinin sıx meşəlik, hava şəraitinin qa□ranlıq olmasından istifadə edərək geri qaçıb və İİR sərhədçiləri tərəfindən öz ərazilərində saxlanılıblar. Hadisə yerində Azərbaycan və İran sərhəd nümayəndələrinin görüşü keçirilib. Hazırda Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sər□həd dəstəsinin və Lənkəran Hərbi Prokurorluğunun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

GÜNDƏM

# ABŞ Suriyaya qarşı yeni sanksiyalar tətbiq edib



**ABŞ Suriya Prezidenti Başər Əsədə və onun xanımı Əsma Əsədə qarşı yeni sanksiyalar tətbiq edib. Bu barədə ABŞ-ın dövlət departamentinin rəhbəri Maykl Pompeo bəyanatla çıxış edib.**

O bildirib ki, Suriya Prezidenti və xanımı daxil olmaqla 39 rəsmi şəxsə qarşı sanksiyalar tətbiq olunub. Bununla yanaşı, Suriya hökuməti ilə iş birliyində olan şirkətlər və dövlətlər də sanksiyalara məruz qalacaq. Qeyd edək ki, ABŞ-ın bu qərarı Suriyanın Baş Naziri Hüseyn Ərnus İranda səfərdə olarkən verilib. Baş Nazir İran rəsmiləri ilə görüşündə iqtisadi əməkdaşlıq məsələlərini müzakirə edib. İran ABŞ-ın bu qərarını beynəlxalq hüquqa zidd olduğunu bəyan edib və bundan sonra da Suriyanı dəstəkləyəcəyini bildirib.

GÜNÜN SİTATI

*"Hazırda Ermənistanda təkcə pandemiya böhranı deyil, həm də siyasi böhran yaşanır. Ölkədə siyasi repressiyalar həyata keçirilir və Paşinyanın yeganə məqsədi öz hakimiyyətinin müddətini uzatmaqdır. Ermənistanda totalitar inqilabi diktatura qurulub"*



**Fəzail Ağamalı,**
Milli Məclisin deputatı

**Günün fotosu...**



**Koronavirusdan yeni qorunma üsulu...**

"HƏFTƏ İÇİ"ndən



## Yeni Günəşlidə ağaclar yandırılır

Hər il ərazini alaq otlarından təmizləmək əvəzinə, od vurub yandırırlar

bax səh. 7



## Kür çayı niyə quruyur?

Mütəxəssislər hesab edirlər ki, mövcud problemin həlli üçün çay boyunca əsaslı şəkildə tədqiqatlar aparılması zəruridir

bax səh. 6

# Azərbaycan Prezidenti Qələbə paradında iştirak etməyəcək



**İyunun 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.** Dövlətimizin başçısı Azərbaycanda karantin tədbirlərinin uzadılması ilə əlaqədar Moskvada Qələbənin 75 illiyinə həsr olunmuş hərbi paradda əvvəlcədən planlaşdırılmış iştirakının mümkün olmadığını təəssüf hissi ilə bildirib və qeyd edib ki, ölkəmiz bu tədbirdə Müdafiə naziri və Azərbaycan Ordusunun 75 nəfər hərbi qulluqçusu ilə təmsil olunacaqdır.

Vladimir Putin vəziyyətə anlayışla yanaşdığını qeyd edərək, telefon zənginə görə təşəkkürünü bildirib. Dövlət başçıları Rusiya-Azərbaycan sərhədində yaranmış vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

Prezident İlham Əliyev bildirib ki, onun Rusiya Prezidenti ilə bu il mayın 18-də ki telefon danışığından ötən dövr ərzində Samur keçid məntəqəsindən 700-ə yaxın, bütövlükdə bir ay ərzində isə quru və hava yolları ilə 1000-ə yaxın Azərbaycan vətəndaşı Rusiyadan ölkəmizə gətirilib. Prezidentlər müvafiq dövlət strukturlarına sərhəddə vəziyyətin tənzimlənməsi ilə əlaqədar əlavə tapşırıqların verilməsi barədə razılaşıblar.

# İlham Əliyev Ərdoğanı təbrik etdi



**Azərbaycan prezidenti İlham Əliyev türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanı təbrik edib.**

Təbrikdə deyilir: "Qardaş Türkiyə Respublikasının nümayəndəsi cənab Volkan Bozkırın Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının Sədri vəzifəsinə seçilməyi münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Sizin rəhbərliyiniz altında həyata keçirilən Türkiyə diplomatiyasının ardıcıl və uğurlu fəaliyyəti sayəsində ölkəniz beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır. Şəxsi təşəbbüsünüzün nəticəsində BMT sistemi tarixində Türkiyə nümayəndəsinin ilk dəfə belə mühüm vəzifəyə seçilməsi xəbəri bizi olduqca sevindirdi.

Əminəm ki, Azərbaycan-Türkiyə dostluq və qardaşlıq münasibətləri birgə səylərimizlə çoxtərəfli müstəvidə də uğurla davam edəcəkdir.

Bu xoş fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, qardaş Türkiyə xalqına daim rifah diləyirəm".

# Deksametazondan nəzarətsiz istifadə ağır xəstələrin sayını artıra bilər"

**"Deksametazon yalnız ağır xəstələrlə bağlı istifadə edilir. Deksametazondan istifadə yeni deyil". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib.**

R. Bayramlı deyib ki, yüngül xəstələr üçün bu dərmanı qəbul etmək təhlükəlidir: "İnsanlarımız həkimlərə inansınlar".

Operativ Qərargahın tibbi eksperti, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov qeyd edib ki, bu dərmandan nəzarətsiz istifadə ağır xəstələrin sayını artıra bilər: "Bu gün apteklərdə deksametazonun tükənməsi xəbərini aldıq. Bu, yolverilməzdir".

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və
baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AIIBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# BMT-də Dağlıq Qarabağ münaqişəsi barədə məruzə yayılıb

***Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı qərargahında Azərbaycan ərazilərini işğal edən təcavüzkar Ermənistanın beynəlxalq hüquqi öhdəlikləri barədə geniş və əhatəli məruzə dərc edilib. Əsas müəllifi professor, kral vəkili Malkolm Şou (Böyük Britaniya) olan bu məruzənin əsas müddəaları aşağıdakılardır.***



***- Ermənistanın nizami silahlı qüvvələri Azərbaycanın Dağlıq Qarabağ regionunun və ona bitişik yeddi rayonun işğal olunmasında bilavasitə iştirak ediblər.***

- Ermənistan Azərbaycanın işğal olunmuş ərazilərində oyuncaq rejim qurub və onun mövcudluğunu müxtəlif üsullarla, o cümlədən həmin ərazilərdə hərbi iştirakını saxlamaq yolu ilə dəstəkləməkdə davam edir. Ermənistan oyuncaq rejim pərdəsi arxasında özünün təcavüzkar rolunu gizlətməyə çalışaraq beynəlxalq hüququn bu pozuntularına görə məsuliyyəti öz üzərindən götürə bilməz.

***- Beynəlxalq hüquq güc tətbiq edilməklə ərazilər əldə olunmasını qadağan edir. Buna görə də Ermənistan və ya onun oyuncaq rejimi tərəfindən Azərbaycanın işğal olunmuş ərazilərində görülən hər hansı tədbir bu ərazilərin əvvəlki hüquqi statusunu dəyişdirə bilməz və beləliklə həmin ərazilər beynəlxalq hüquqa görə Azərbaycan əraziləri olaraq qalır.***

- Ermənistan onun tərəfindən beynəlxalq humanitar hüququn və beynəlxalq insan haqları hüququnun pozulmasına görə dövlət məsuliyyəti daşıyır. Bu cür pozuntular sırasına Azərbaycanın işğal olunmuş ərazilərinə şamil edilən qanunların və hüquq sistemini dəyişdirmək cəhdləri, əmlak hüquqlarına qəsd edilməsi, mədəni və tarixi əhəmiyyətli obyektlərin dağıdılması və ya məhv edilməsi, işğal olunmuş ərazilərdə erməni məskənlərinin yaradılması, himayə edilən şəxslərlə lazımınca davranılmaması və onların zorakılıqla yox edilməsi aiddir.

***- Ermənistan həm törətdiyi pozuntulara son qoymalı, həm də bu pozuntularla bağlı ziyanı ödəməlidir. Beynəlxalq humanitar hüquqa və beynəlxalq insan haqları hüququna görə bu cür öhdəliklərə Ermənistana münasibətdə qüvvədə olan mexanizmlər, məsələn, BMT-nin insan haqları üzrə müqavilə orqanları və müvafiq beynəlxalq məhkəmə təsisatları tərəfindən nəzarət edilə və həyata keçirilə bilər.***

- Təcavüzün gedişində Ermənistan tərəfindən törədilmiş hərbi cinayətlərə, insanlıq əleyhinə cinayətlərə və soyqırımına gəldikdə isə buna görə fərdi məsuliyyət milli məhkəmələr, o cümlədən cəlb edilmiş müxtəlif dövlətlərin və ya üçüncü dövlətlərin məhkəmələri vasitəsilə həyata keçirilə bilər, Ermənistanın bir dövlət kimi məsuliyyəti isə müvafiq dövlətlərarası mexanizmlər vasitəsilə təmin edilə bilər. Ermənistanın işğalçı siyasətini ifşa edən məruzə BMT Baş Assambleyasının və Təhlükəsizlik Şurasının rəsmi sənədi statusu ilə nəşr edilib və yayılıb.

✍ *Azad*

# Xəstə sayı sürətlə artır

**"Sərt karantin rejiminə bizi vadar edən epidemioloji vəziyyətdir". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, dünya ölkələrində koronavirusa yoluxma artır: "Azərbaycanda da vəziyyət ürəkaçan deyil.**

Bizim A, B və C variantlarımız var. Son iki həftədə tətbiq olunan məhdudiyyətlərin hansı nəticə verməsinə gəlincə, bu addımlar da xarici ölkələrin təcrübəsinə əsasən atılmışdı. Bu, bizə uzunmüddətli məhdudiyyətlərin tətbiqinə vaxt qazanmağa imkan verdi". TƏBİB İdarə Heyətinin sədri qeyd edib ki, məhdudiyyətlər aprel ayında tətbiq olunan məhdudiyyətlərə bənzəyir: "Aprel ayında səhiyyə strukturları təşkilikliklə mübarizəyə tam hazır deyildi. Düzdür, yetərincə çarpayı sayı vardı. Ancaq xəstəliyin nə dərəcə artması, əlavə çarpayı sayına ehtiyac olması, laboratoriya, avadanlıq, xəstəxanaların digər təminatları həyata keçirildi. Xəstələrin 15 faizi adətən, reanimasiya üçün nəzərdə tutulur".

R. Bayramlı nəzərə çatdırıb ki, dünən xəstəxanalara baş çəkmək imkanı olub: "Xəstəxanaların oksigen sistemləri, generatorlar bu qədər xəstəyə hesablanmamışdı. Xəstəxanaların bir qismində generatorlar deyil, oksigen balonları istifadə olunurdu. Bununla əlaqədar generatorlar alınıb. Modul tipli xəstəxanalar yaradılıb, 7 minə qədər çarpayı hazırlanıb, ancaq bu gün 5 minə qədər xəstə var, virusa yoluxma sürətlə baş verir. Yeni yoluxanlarla sağalanlar arasında fərq artır, tibb müəssisələrinin üzərinə böyük yük düşür".

"Bir çox ölkələrdə koronavirusdan vəfat edənlərin sayı Azərbaycanda xəstəliyə yoluxanların sayı qədərdir". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, dünya ölkələrində yoluxanlar arasında 4-18 faiz ölüm var: "Azərbaycanda isə ölüm faizi daha aşağıdır. Bu, səhiyyə sisteminin hazırlığı ilə bağlıdır. Son günlər Almaniya, İtaliya kimi ölkələrdə yoluxma artır. Türkiyədə bir sıra şəhərlərdə belə maskanın tətbiqi tələbi qoyulub. Çində yenə sərt tədbirlər tətbiq olunur. Azərbaycan dövlətinin siyasətinin mərkəzində insanlarımızın sağlamlığı dayanır. Çünki biz bu məhdudiyyətləri tətbiq etməklə xəstəliyin gedişinin dalğavari olmasını təmin etmək istəyirik. Xəstəliyin qarşısının alınması qəti surətdə karantin rejiminin tətbiqi ilə mümkün olmayacaq. Xəstəliyin qarşısının alınması peyvənd və dərmanın tapılması ilə mümkün olacaq. Bu gün də bunlar yoxdur. İndiyə qədər 10-a yaxın mərkəzdə ciddi tədqiqatlar aparılır, iki mərkəzin tədqiqatı üçüncü mərhələyə keçib. Ancaq peyvənd tapılsa da, ola bilər ki, hər il virusun yeni ştamplarına görə yeni peyvəndlərə ehtiyac olacaq. Bir ehtimal da var ki, virus mutasiya olunsun və həyatımızdan itsin. Ancaq bu, o qədər də real deyil". TƏBİB-in İdarə Heyətinin sədri qeyd edib ki, bir sıra ölkələrdə vəziyyət də tədqim olunduğu kimi deyil: "Təhlükə çox ciddidir. Əgər xəstəlik dalğavari deyil, yüksələn xətlə inkişaf edərsə, səhiyyə sistemi bunun öhdəsindən gələ bilməz və daha çox ölümlər olar. Atılan addımlarda məqsəd xəstəliyin yüksələn xətlə deyil, dalğavarı yayılmasına nail olmaqdır".

"Son 2 həftədə tətbiq etdiyimiz həftəsonu məhdudiyyətləri əksər insanlarımız normal qarşıladı, insanlar qaydalara daha çox əməl etməyə başladılar". Ramin Bayramlı bildirib.

Onun sözlərinə görə, qaydalara əməl etmək baxımından aparılan müşahidələr onu göstərir ki, vəziyyət heç də ürəkaçan deyil: "Hələ də qaydalara ciddi əməl etməyən, vəziyyətə barmaqarası baxan vətəndaşlarımız var. Küçələrdə hələ də simptomları olmayan və zəif olan vətəndaşlarımız var. Onlar maskasız gəzdikdə başqa insanları da yoluxdururlar. Hələ də yas yerlərinə kütləvi toplaşanlar var. Yas yerlərində kütləvi yoluxmalar haqqında ciddi epidemioloji nəticələri görürük. İctimai nəqliyyatda qoruyucu vasitələrin, maskanın istifadə olunmaması ilə bağlı kifayət qədər yoluxma halı mövcuddur".

"Hələ də yas yerlərində kütləvi toplaşmalar və kütləvi yoluxmalar var". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, ictimai nəqliyyatda da maska taxılmaması kütləvi yoluxmalara yol açır: "Aktiv xəstələrə yanaşı, bir çox vətəndaşlarımız simptomlarının gecikdirilməsi ilə müraciət edirlər. Nəticədə test zamanı onlar müəyyən edilə bilmir. Bu insanların vəziyyətinin kəskin pisləşməsi ehtimalı var. O insanlar pandemiya deyil, digər xəstəxanaların infeksion şöbələrində yerləşdirilirlər. Bu xəstələr də COVID-19 xəstələri kimi qiymətləndirilmir. Yuxarı tənəffüs yolunda test neqativ çıxsa da, ağciyərin aşağı hissəsindən ciddi virusa yoluxma



aşkarlanır. Bu insanların vəziyyəti qısa müddətdə kəskinləşə bilər". TƏBİB-in İdarə Heyətinin sədri qeyd edib ki, virus qanda laxtalanmaya, bu da ürək, beyin damarlarında ciddi tıxanmalara səbəb olur: "Gecikdirildiyi üçün testi neqativ çıxan xəstələrimiz çoxdur. Son vaxtlar Bakıda pandemiya xəstəxanaların 85 faizində doluluq yaşadığımız günlər olub. Ona görə də yeni xəstəxanalar pandemiya xəstəxanasına çevrilir, modul tipli xəstəxanalardan da ikisi istifadəyə verilib. Rayonlarda da bir neçə xəstəxana pandemiya xəstəxanasına çevrilib".

R. Bayramlı nəzərə çatdırıb ki, xəstələrin evdə müalicəsi üçün də hazırlıqlar görülüb: "Artıq asimptomatik xəstələr evdə müalicə olunacaq. Bunun üçün mobil tətbiqlər mövcuddur. E-təbib adlı mobil tətbiqlə xəstələr nəzarətdə saxlanılacaq. Vətəndaşların evlərini tərk etməməsi üçün onlara təlimatlar veriləcək. Ev telefonu vasitəsi ilə sahə həkimlərinə 12 saatdan bir suallar ünvanlanacaq. Bununla da pasiyentin evdə müalicəsi, yaxud xəstəxanaya yerləşdirilməsi ilə bağlı qərar veriləcək. Hazırda xəstələrin xəstəxanalara gətirilməsi davam edir. İrəlidəki günlərdə yoluxanlarla sağalanların arasındakı fərqlə əlaqədar epidemioloji vəziyyətin nəzarətə götürülməsi və bunun üçün müəyyən məhdudiyyətlərin tətbiqi qərara alınıb". "Aparılan müşahidələr göstərir ki, koronavirus insan orqanizmində qanın laxtalanma sisteminə çox ciddi təsir göstərir". Ramin Bayramlı bildirib.

Onun sözlərinə görə, virus sayəsində orqanizmin kalqulyasiya sistemindəki normal biokimyəvi proseslər çox ciddi zədələdiyindən orqanizmdə tromboz baş verir və trombla əlaqədar olaraq istər ürək divarında, digər damarlarda, beyin damarlarında çox ciddi tıxanmalar olur: "Bunun nəticəsində ya ağır orqan zədələnmələri, ya da həyati təhlükələr yaranır".

"Təhlillər onu göstərir ki, icbari tibbi sığorta tətbiq olunmayan rayonlarda digər xəstələrlə bağlı çarpayıların doluluğu 30 faiz, Bakıda 40 faiz olub". Ramin Bayramlı Göyçay, Ucar və Zərdab rayon mərkəzi xəstəxanalarının pandemiya xəstəxanalarına çevrilməsi ilə bağlı sualı cavablandırarkən bildirib. R. Bayramlı deyib ki, bu rayonlardakı digər xəstələr 30-40 dəqiqə uzaqlıqda yerləşən digər xəstəxanalarda müalicə olunacaqlar: "Dializ və digər xəstələrlə bağlı fəaliyyətlər isə həmin xəstəxanalarda davam etdiriləcək. Bakı və digər rayonlarda tibbi xidmətlərlə bağlı hər hansı çatışmazlıq olmayacaq".

"Karantin rejiminin ciddiləşməsi tətbiq olunan bölgələrdə çimərliklərdən istifadəyə tam məhdudiyyət qoyulacaq". Ramin Bayramlı bildirib.

Onun sözlərinə görə, öncəki məhdudiyyətlərdən fərqli olaraq SMS icazə sistemi ilə çıxışa imkan verilən müddət ərzində park, bulvar açıq olduğuna görə, bunun üzərində işlənilir:

"Yaqin ki, digər qurumlarımız tərəfindən əlavə məlumat veriləcək. İnsanların sıx toplaşmaması baxımından saatları tənzimləməklə icazə mümkün olacaq. Yəni necə ki, SMS icazə ilə alış-verişə çıxdığımız müddət müəyyən olunurdu, həkimə gedib-gəlmək müəyyən olunurdusa, bu çərçivədə yanaşılacaq. Bu istiqamətdə sabah əlavə məlumatlar veriləcək".

Operativ Qərargahın tibbi eksperti, Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov da bildirib ki, sərt karantin dövründə, iki həftə ərzində çimərlikdən istifadə mümkünsüz olacaq.

R. Mahmudov deyib ki, karantin rejimi yumşaldıqda tibbi-metodiki göstərişə uyğun olaraq çimərliklər açıla bilər: "Virusla yaşamaq üçün qaydalara, metodik göstərişlərə riayət etməliyik. Bu halda xəstəlik də nəzarətdə olacaq". "Hazırda 25-ə yaxın laboratoriyada koronavirusla bağlı testlər keçirilir". Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, ölkədə test ehtiyatı kifayət qədərdir: "Test ehtiyatı tender qaydalarına uyğun əldə edilib. Alınan bütün testlər Almaniya istehsalıdır. Testin maya dəyəri 40 manat civarındadır. Bura mütəxəssislərin əməyi daxil deyil".

# Qlobal Sülh İndeksində Ermənistanın göstəricisini yüksəltmək qərarı səhvdir

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev İqtisadiyyat və Sülh İnstitutunun 2019-cu il üçün açıqladığı son Qlobal Sülh İndeksində Ermənistanın "sülhsevərlik" üzrə göstəricisini yüksəltməsinə münasibət bildirib.**

BMTM-nin mətbuat xidmətindən hafta.az-a verilən məlumata görə, F. Şəfiyev bildirib ki, İqtisadiyyat və Sülh İnstitutunun Qlobal Sülh İndeksində "sülhsevər" ölkə olduğu üçün Ermənistanın göstəricisini yüksəltmək qərarı səhvdir və İrəvana yanlış mesaj göndərir. "Maraqlıdır, hesabatın müəllifləri Ermənistanın nəinki Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin işğalını davam etdirməsindən, həmçinin "ən sülhsevər ölkə" kimi qiymətləndirdikləri 2019-cu ildə bu ölkənin Baş Naziri Nikol Paşinyan və digər kabinet nümayəndələrinin hərbi ritorikadan istifadə etmələrindən və bu ritori-



**Fərid Şəfiyev,**
Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri

kaların Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üzrə fəaliyyət göstərən ATƏT-in Minsk Qrupu həmsədrləri tərəfindən pislənməsindən xəbərdardırlarmı? Nikol Paşinyanın 2019-cu ilin 5 avqustunda Azərbaycanın işğal olunmuş torpaqlarına səfəri zamanı "Dağlıq Qarabağ Ermənistandır" fikrini səsləndirməsi BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini pozaraq (822, 853, 874, 884) qonşu ölkənin ərazilərinin ilhaqının bəyanıdır. Qeyd etmək lazımdır ki, Nikol Paşinyan vəzifəsinin icrasına başlayarkən atdığı ilk addım oğlunu Azərbaycanın işğal olunmuş ərazilərinə hərbi xidmətə yollamaq olub. Bunu sülh naminə atılmış addım kimi qiymətləndirmək mümkün deyil. Ermənistanın müdafiə naziri David Tonoyan isə 2019-cu il martın 30-da Nyu-Yorkda erməni diasporu qarşısında çıxışı zamanı "yeni ərazilər naminə yeni müharibə" deyərək, yeni "müdafiə" konsepsiyasını səsləndirib və bu da sülh mesajı meyarlarına çətin ki, cavab versin. Siyahını baş nazir Nikol Paşinyanın 2020-ci il mayın 21-də Azərbaycanın tarixi şəhəri Şuşaya təxribat xarakterli səfəri və beynəlxalq ictimaiyyət tərəfindən pislənən qanunsuz seçkilərdən sonra qondarma inauqurasiya mərasimində iştirakına qədər uzatmaq olar. 2019-cu ildə yeganə müsbət irəliləyiş ATƏT-in Minsk qrupu həmsədrlərinin çağırışından sonra Azərbaycanın gərginliyi azaltmağa dair qərarına əsasən təmas xəttində baş verən itkilərin sayının azalması olub.

Həmçinin xatırlatmaq yerinə düşər ki, 2019-cu ildə iki dəfə - mayın 30-u və sentyabrın 22-də Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqları ərəfəsində Ermənistan Silahlı Qüvvələrinin açdığı atəş nəticəsində Azərbaycan hərbçiləri həlak olub. İqtisadiyyat və Sülh İnstitutunun Qlobal Sülh İndeksində "sülhsevər" ölkə olduğu üçün Ermənistanın göstəricisini yüksəltmək qərarı səhvdir və Yerevana yanlış mesaj göndərir", - deyə F. Şəfiyev vurğulayıb.

✍ *Vüsal*

# İkili standartların mövcudluğu Ermənistanı getdikcə azğınlaşdırır

***Ermənistanın daxili siyasi seqmentində qarşıdurmaların pik həddə çatmağı yeni iğtişaşları doğuracaq. Bunu hafta.az-a açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin baş məsləhətçisi, politoloq Tural İsmayılov bildirib: “Hələ aylar əvvəl proqnozlarımda qeyd etmişdim ki, Paşinyana qarşı daxili siyasi savaş bir neçə ay ərzində öz kulminasion nöqtəsinə çatacaq.***



Paşinyan əvvəlcə Ermənistan konstitusiyasını tarimar etməyi qarşısına məqsəd qoydu. Konstitusiya Məhkəməsinin sədri Tovmasyana və ailəsinə qarşı olan hücumlar hakimlərin və məhkəmə sisteminin siyasi iqtidarla münasibətlərini korladı. Ardınca isə Sarkisyan və Koçaryan, onlara bağlı olan qüvvələr Paşinyana qarşı yeni gizli koalisiyanı formalaşdırdılar. Bu koalisiya 3-4 cəbhədə Paşinyan və ailəsinə, həyat yoldaşı Anna Akobyana qarşı informasiya müharibəsi aparırlar. Ermənistan DTK-nin keçmiş sədri, Ermənistanın Vatikandakı keçmiş səfiri Minasyan isə Paşinyan və ətrafını korrupsiyada və dövlət büdcəsini dağıtmaqda ittiham edir. Paşinyanın siyasi savadsızlığı nəticəsində bu qüvvələr neytrallaşdırılmadan bu dəfə ona qarşı “Çiçəklənən Ermənistan” Partiyası və tərəfdarları tərəfindən yeni müqavimət bloku formalaşdı. Ermənistan bölgədə hüquqa ən rəzil hücumu edərək müxalif millət vəkili Qaqik Tsarukyanın mandatını əlindən aldı və həbs etdirdi. Nəzərə alaq ki, Ermənistan müxalifətində təmsil olunan bir xeyli maliyyə mənbəyi, oliqarxiya və biznesmenlər həm də nəhəng oliqarx hesab olunan Tsarukyanın ətrafında cəmləşmişdi. Ermənistan müxalifətinin qatı millətçi nümayəndəsi Naira Zoqrabyanın da Paşinyana qarşı sərt bəyanatlarının səsi eşidilməyə başlanıb. Digər tərəfdən, Dağlıq Qarabağdakı qondarma terror rejiminin uydurma seçki şousuna dünyanın mövqeyi və burada da Sarkisyana bağlı olan klanların hələ də rəhbərlikdə təmsil olunmağı Paşinyan üçün daha çətin siyasi nəticələr doğurur”.

Tural İsmayılov vurğulayıb ki, Avropa Parlamentinin Qarabağa qanunsuz üçüncü yol çəkilişinə görə tənqidləri Paşinyanın olmayan nüfuzunu daha da zəiflətdi: “Beynəlxalq təşkilatlar Ermənistandakı qəsbkar rejimə öz layiq olduqları cavablarını verdi. Ermənistanın qanunsuz yol çəkilişinə Avropa Parlamentinin kəskin mövqeyi vəziyyətin Ermənistan üçün heç də yaxşı olmadığını göstərir. Ermənistanda Koronavirus pandemiyası ilə mübarizə də uğursuz aparıldı və nəticədə yoluxma və ölüm sayına görə Ermənistandan acınacaqlı mənzərə hökm sürür. Əhalinin pandemiya şəraitində dəstəksiz qalmağı da Paşinyan iqtidarının vəziyyətini pisləşdirir.”

■ **“Hazırda Ermənistanda təkcə pandemiya böhranı deyil, həm də siyasi böhran yaşanır. Ölkədə siyasi repressiyalar həyata keçirilir və Paşinyanın yeganə məqsədi öz hakimiyyətinin müddətini uzatmaqdır. Ermənistanda totalitar inqilabi diktatura qurulub”. Bunu deputat Fəzail Ağamalı deyib.**

O bildirib ki, son hadisələrdən sonra Ermənistanda Nikol Paşinyanı diktator hesab edənlərin sayı artır: “Qaqik Sarukyanın məhz Nikol Paşinyan hakimiyyətini tənqid etməsindən sonra təzyiqlərə məruz qalması baş verənlərin siyasi təqib olduğunu sübut edir. Sarukyanla bağlı son hadisələr fonunda “azadlıq carçısı” olan bəzi beynəlxalq təşkilatların, beynəlxalq QHT-lərin, ümumən bir sıra Qərb təşkilatlarının səssizliyi heyrət doğurur. Sarukyanın tərəfdarları Ermənistan parlamentinin önündə etiraz aksiyası keçirməyə cəhd göstərsə də, ölkənin təhlükəsizlik qüvvələri tərəfindən onun qarşısı kobudluqla alınıb, yüzlərlə adam saxlanılıb və polis aksiyanı işıqlandıran jurnalistlərə qarşı güc tətbiq edib. Ancaq bütün bunlara Qərb təşkilatları tərəfindən reaksiya verilməyib. Halbuki, hadisələr zamanı insanların ifadə azadlığı, azad toplaşma hüququ, hüquq-mühafizə orqanları tərəfindən lüzumsuz yerə güc tətbiq olunmaması, KİV-in sərbəst fəaliyyətinə imkan yaradılması və s. kimi Qərbin “önəm verdiyi” bütün dəyərlər ayaq altına alınıb. Maraqlıdır, bəs Qərb niyə susur?! ABŞ Dövlət Departamenti, Avropa Şurası Parlament Assambleyası, ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi, ABŞ-ın Ermənistandakı səfiri, Qərb ölkələrinin Ermənistandakı səfirlikləri özlərini elə aparırlar ki, sanki heç nə baş verməyib”.

Deputat qeyd edib ki, ancaq bu, Qərbin özünü görməzliyə vurduğu ilk hadisə deyil: “Populist çıxışları ilə tanınan Paşinyan hakimiyyətə gəldikdən sonra demokratiya adı altında ölkənin tanınmış siyasi və ictimai xadimlərinə qarşı olan repressiv vasitələrdən geniş şəkildə istifadə etməsi və onları bir-bir sıradan çıxararaq zərərsizləşdirməsi heç kimə sirr deyil. Gələcəkdə özünə rəqib olacaq və ya rəqib olma ehtimalı ola bilən istənilən şəxsi korrupsiya ilə mübarizə ittihamı ilə həbs etməsi və bunun fonunda Qərbin sükutu Paşinyanın əl-qolunu daha da açır. Küçə adamından baş nazir pilləsinə kimi irəliləmiş Nikol Paşinyanın amerikalı iş adamı Corc Sorosun təsis etdiyi Soros Açıq Cəmiyyəti (Soros Fondu) tərəfindən dəstəkləndiyi gün kimi hər kəsə aydındır. Paşinyanın 2018-ci ildəki küçə yürüşləri, mitinqləri və kütləvi aksiyalarının arxasında əslində hansı qüvvələrin dayandığı hər kəsə bəllidir.

Ermənistanda anti-sorosçuların həbsi dediklərimizin bariz nümunəsidir”. F. Ağamalı nəzərə çatdırıb ki, Qərbin ikili standartlarının ən bariz nümunəsi Ermənistanda keçirilmiş seçkilərə reaksiyalarıdır: “2017-ci ildə Ermənistanda parlament seçkiləri keçirildi. Seçkiləri müşahidə edən Qərb təşkilatlarının rəyində Ermənistanda bütün başlıca azadlıqlara əməl edildiyi göstərilmişdi. Lakin az sonra Ermənistanda inqilab baş verdi və seçkiləri uduzmuş indiki baş nazir hakim partiyanı devirdi. 2019-cu ildə BMT Baş Assambleyasında çıxış edən Ermənistanın baş naziri 2018-ci ilin dekabrında keçirilmiş yeni seçkiləri 25 il ərzində ilk dəfə onun nəticələrinin hamılıqla qəbul edildiyini və heç bir siyasi partiya tərəfindən şübhə altına alınmadığını qeyd etdi.

Yəni, Qərbin əvvəlki seçkilərə verdiyi qiyməti Paşinyan bu çıxışında heç sayıb. Bir sözlə, Azərbaycanofobiyadan ilhamlanan bəzi təşkilatlar ölkəmizdə ən xırda məsələyə reaksiya verdikləri halda, Ermənistanda baş verən qanunsuzluğa qarşı bir dəfə də olsun hansısa ittiham səsləndirməyiblər. Görünür, onların demokratiyasının fəlsəfəsi də budur: Əgər mənim adamımsansa və mənə işləyirsənsə, deməli demokratsan. Ancaq buna son verilməlidir. Beynəlxalq təşkilatları Ermənistanda baş verənlərə düzgün qiymət verməyə çağırıram”.

Bir neçə gün əvvəl Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin (PƏK) həmsədri Mariya Kalyurandın, Azərbaycan üzrə məruzəçisi Jelena Zavkonun, Ermənistan üzrə məruzəçisi Trayan Baseskunun Ermənistan ilə Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsi arasında əlaqə yaradacaq magistral yolun tikintisi ilə bağlı birgə bəyanatı işğalçı ölkəyə növbəti zərbə oldu. Avropa Parlamentinin Ermənistanın işğalçı siyasətinə açıq şəkildə etirazını bildirməsi və bu barədə bəyanat qəbul etməsi işğalçı ölkə üçün sanki “sürpriz” oldu. Axı Ermənistan Azərbaycanın inkişafını gözü götürməyən qüvvələrin əlində bir vasitədir. Bundan başqa, dünyada ikili standartların mövcudluğu da Ermənistanı getdikcə azğınlaşdırır.

■ **Bunu isə Milli Məclisin deputatı, siyasi elmlər doktoru Aqiyə Naxçıvanlı söyləyib. Deputat bildirib ki, işğalçı ölkə tərəfindən beynəlxalq hüququn norma və prinsiplərinə biganəlik, dünya birliyinin bu ədalətsizliyə göz yumması Ermənistanı daha da qudurdub.** Avropa Parlamentinin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə PƏK həmsədrinin, həmçinin Azərbaycan və Ermənistan üzrə məruzəçilərinin imzaladıqları birgə bəyanat bir daha ölkəmizin ərazi bütövlüyünün bu qurum tərəfindən tanındığını təsdiqlədi. Görünür, beynəlxalq təşkilatlar da artıq Ermənistanın işğalçı siyasətindən cana doyublar. Nikol Paşinyanın ölkəyə rəhbərliyindən sonra Ermənistan beynəlxalq aləmdəki dayaqlarını bir-bir itirir. Artıq dünya ictimaiyyətinə də bəlli oldu ki, Nikol Paşinyanın faşist ideologiyasına hüsnrəğbəti onun genindən gəlib. Xatırladım ki, bir qədər əvvəl Paşinyanın özü bu sirrin üstünü açdı. Əslində, o, öz nəsil - nəcabətinin, yəni, vətənpərvər, İkinci Dünya müharibəsinin iştirakçısı olduğunu bildirmək istəyirdi. Lakin hadisələrin gedişi heç kimə bəlli olmayan bir həqiqətin üstünü açdı. Məlum oldu ki, baş nazirin babası nasist Nidje Qaregininin əsgəri olub.

“Ölkəyə rəhbərlik etdiyi gündən populist çıxışları ilə tanınan N.Paşinyan Ermənistanın inkişafı, işsizlik probleminin aradan qaldırılması, əsgər ölümünün qarşısının alınması, ölkədə demokratik prinsiplərin inkişafı və münaqişənin nizamlanması istiqamətində heç nə edə bilmədi. Paşinyan ölkə rəhbərliyinə gəldikdən sonra, əksinə, danışıqlar prosesinə zərbə vurdu. Onun işğal altında olan Azərbaycan ərazilərinə tez-tez yersiz səfərlər etməsi, Dağlıq Qarabağda keçirilən beynəlxalq hüquq normalarına zidd olan saxta “seçkiləri” dəstəkləməsi, əslində, əhalinin diqqətini ölkə daxilindəki narazılıqlardan yayındırmaq idi. Yeri gəlmişkən, bu vaxta qədər Dağlıq Qarabağda keçirilən bütün “seçkilər” heç bir ölkə və beynəlxalq təşkilat tərəfindən tanınmayıb. İşğal altındakı ərazilərdə keçirilən qeyri-qanuni tədbirlərdə Paşinyanın populist çıxışları da qeyri-ciddi qarşılanıb. Çünki onun çıxışları hökumət başçısından çox, küçə uşaqlarının dediklərinə uyğun gəlirdi.

Yerli ziyalılar və ictimai-siyasi xadimlər də bu reallığı etiraf edirlər. Onlar da indiyədək Ermənistana belə qeyri-ciddi, siyasi təfəkkürü olmayan, savadsız birinin rəhbərlik etmədiyini bildirirlər. Əslində, küçə və meydanlardan hakimiyyətə gəlmiş birindən bundan artıq nə gözləmək olardı?

Ermənistanın ictimai-siyasi xadimləri də etiraf edirlər ki, Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra demokratiya adı altında ölkənin tanınmış siyasi və ictimai xadimlərinə qarşı repressiv vasitələrdən geniş şəkildə istifadə etməklə, onları bir-bir sıradan çıxararaq zərərsizləşdirdi. O, öz siyasi rəqiblərini bir-bir həbsə atdırır, onlara hədə-qorxu gəlir və sanki meydanlarda “demokratiya” deyib haray-həşir salan Paşinyan deyildi. Onun göstərişi ilə indiyədək Ermənistanın keçmiş rəhbərliyinə qarşı silsilə cinayət işləri açılıb və hazırda istintaq davam edir.

Paşinyanın bu “demokratik islahatlarına” Qərbin seyrçi mövqeyi faşist ideologiyasına meyilli baş nazirin əl-qolunu daha da açır, getdikcə onu daha da azğınlaşdırır. Fürsətdən istifadə edən baş nazir gələcəkdə özünə rəqib olacaq istənilən şəxsi korrupsiyaya qarşı mübarizə ittihamı ilə həbs etdirir, özünü xalqın təəssübkeşi kimi göstərərək, rəqiblərini sıradan çıxarır. Artıq yerli əhali onu diktator kimi qəbul edir. Son vaxtlar baş verən hadisələr də təsdiqləyir ki, hazırda Ermənistanda totalitar inqilabi diktatura qurulub”, - deyə Aqiyə Naxçıvanlı vurğulayıb.

Qeyd edib ki, ölkədə həyata keçirilən siyasi repressiyalar növbəsi parlamentə çatıb.

Məlum olduğu kimi, 2020-ci il iyunun 16- da “Çiçəklənən Ermənistan” partiyasının sədri, Ermənistan parlamentindəki “Sarukyan” fraksiyasının lideri, ölkənin imkanlı şəxslərindən hesab edilən Qaqik Sarukyanın deputat toxunulmazlığı parlament tərəfindən ləğv edilib. Deməli, baş nazirin növbəti qurbanı deputat Q.Sarukyandır. O, ifadə vermək üçün artıq ölkənin təhlükəsizlik qüvvələri tərəfindən istintaqa cəlb edilib. Hadisələrin gedişi də təsdiqləyir ki, deputatın həbs ediləcəyi istisna olunmur. Bəs buna səbəb nədir? Yerli ictimai-siyasi xadimlərin dediyinə görə, Q.Sarukyan dəfələrlə ölkənin siyasi və iqtisadi böhran içərisində çapaladığını bəyan edib. N.Paşinyan hakimiyyətini kəskin tənqid edən, onun dövlət idarəçiliyində piyada, siyasətdənkənar adam olduğunu deyən Qaqik Sarukyana qarşı başlanan siyasi təqiblərin sonu həbslə nəticələndi.

O deyib: “Bu gün Ermənistanda sərbəst toplaşmaq azadlığına qadağa qoyulması, öz fikrini sərbəst ifadə edənlərə divan tutulması, onların həbs edilməsi beynəlxalq qurumların gözləri qarşısında baş versə də, yenə də ikili standartlar Ermənistanı, necə deyərlər, “sudan quru çıxarır”. Deputat Q.Sarukyanın Ermənistan parlamentinin önündə etiraz aksiyası keçirməyə cəhd göstərən tərəfdarlarına qarşı ölkənin təhlükəsizlik qüvvələri tərəfindən təzyiq edilməsi, yüzlərlə aksiya iştirakçısının saxlanılması, hətta baş verənləri işıqlandıran jurnalistlərə qarşı güc tətbiqi “Nikol Paşinyan demokratiyasının” göstəricisidir. Təəssüf ki, həmişə olduğu kimi, bu dəfə də “azadlıq carçısı”, “insan hüquq və azadlıqlarının müdafiəçisi” olan bəzi beynəlxalq təşkilatlar, o cümlədən QHT-lər, bütövlükdə isə bir sıra Qərb təşkilatları biganəlik göstərir, antidemokratik hadisələrə laqeyd yanaşır, sanki heç nəyi görmür və heç nəyi eşitmirlər.

Halbuki, bəzi qərəzli təşkilatlar ölkəmizdə ən xırda məsələyə reaksiya verdikləri, az qala, “milçəkdən fil düzəltdikləri halda”, Ermənistanda baş verən qanunsuzluğa, diktatorluğa və özbaşınalığa bir dəfə də olsun münasibət bildirməmələri ikili standartların nəticəsidir. Vəziyyət isə getdikcə ağırlaşır, işğalçı ölkə siyasi təlatümlər məngənəsində çapalayır.

“Artıq bütün dünya bilir ki, işğalçı ölkəni müxalifətdəki “Çiçəklənən Ermənistan” partiyasının sədri, Ermənistan parlamentindəki “Sarukyan” fraksiyasının lideri, milyonçu Qaqik Sarukyanın deputat toxunulmazlığı parlament tərəfindən ləğv edildi və təhlükəsizlik qüvvələri tərəfindən ifadə vermək üçün istintaqa cəlb edildi. Heç şübhəsiz ki, Sarukyan həbs ediləcək. Sarukyanın tərəfdarları Ermənistan parlamentinin önündə etiraz aksiyası keçirməyə cəhd göstərsə də, ölkənin təhlükəsizlik qüvvələri tərəfindən onun qarşısı kobudluqla alınıb və yüzlərlə adam saxlanılıb”.

■ **Bunu hafta.az-a açıqlamasında Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva deyib.** Millət vəkili bildirib ki, Ermənistanda polis aksiyanı işıqlandıran jurnalistlərə qarşı güc tətbiq edib: “Bu hadisələr zamanı insanların ifadə azadlığı, sərbəst toplaşma hüququ, KİV-in sərbəst fəaliyyətinə imkan yaradılması qaydaları kobud surətdə pozulub. Qərbin “önəm verdiyi” bütün bu dəyərlər ayaq altına salınıb. Amma nədənsə Qərb bu hadisələri görməzdən gəlir.

Azərbaycanda əhəmiyyətsiz bir hadisə olan kimi bəyanat verən ABŞ Dövlət Departamenti, Avropa Şurasının Parlament Assambleyası, ATƏT-in Media Azadlığı üzrə nümayəndəsi indi özlərini elə aparırlar ki, sanki heç nə baş verməyib. Ermənistandakı repressiv proseslərə susmaq özü riyakarlıq, ikiüzlülükdür. Vaxtilə Ermənistanda müxalif siyasətçi və jurnalist Mher Yeqizaryan həbsxanada etdiyi aclığın ardından vəfat etdikdə də Qərb ölkələri və beynəlxalq təşkilatlar müəmmalı susqunluq nümayiş etdirdilər”.

“Bu gün açıq şəkildə görürük ki, Ermənistanda totalitar inqilabi diktatura qurulub”, - deyən Sədaqət Vəliyeva əlavə edib ki, populist çıxışları ilə tanınan Paşinyan hakimiyyətə gəldikdən sonra “demokratiya” adı altında ölkənin tanınmış siyasi və ictimai xadimlərinə qarşı repressiv vasitələrdən geniş şəkildə istifadə edib və onları bir-bir sıradan çıxararaq zərərsizləşdirib: “Belə olan vəziyyətdə Şennaklar, Sunnalar hara baxır? Niyə AŞPA hadisələrə müdaxilə edib, bəyanatlar vermir, Paşinyan hakimiyyətinə sanksiyalar tətbiq etmir? Deməli ki, demokratiya deyib dünyanı istismar edən bu kimi təşkilatlar ikistandartlıdırlar, qeyri-obyektivdirlər. Azərbaycanda ən xırda məsələyə reaksiya verdikləri halda, Ermənistanda baş verən qanunsuzluğa qarşı bir dəfə də olsun hansısa ittiham səsləndirməyiblər. Görünür, onların demokratiyasının fəlsəfəsi də budur...”.

✍ *Tural*

# Gömrük əməkdaşları üçün onlayn təlim başlayıb



**İyunun 17-dən Dövlət Gömrük Komitəsində (DGK) BMT-nin Narkotiklər və Cinayətkarlıq İdarəsinin və Ümumdünya Gömrük Təşkilatının birgə layihəsi olan “Konteyner daşımalarına nəzarət üzrə qlobal proqram” çərçivəsində Strateji Ticarət və İxrac Nəzarəti mövzusunda onlayn təlim keçirilir.**

DGK-nın Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən hafta.az-a bildirilib ki, komitənin aidiyyəti strukturlarının əməkdaşları üçün keçirilən təlimin məqsədi strateji ticarət, eləcə də ixrac nəzarətinə düşən malların identifikasiya olunması və onların qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində potensialın yüksəldilməsidir.

BMT Narkotiklər və Cinayətkarlıq İdarəsinin eksperti Ercan Saka bildirib ki, təlimdən öncə iştirakçıların mövzu ilə bağlı bilik səviyyələrinin öyrənilməsi məqsədilə keçirilən qiymətləndirmənin nəticələri qənaətbəxşdir. Belə ki, azərbaycanlı gömrükçülərin bilik səviyyələri 96 faizdən yuxarıdır.

BMT Narkotiklər və Cinayətkarlıq İdarəsinin eksperti Adam Baçelor və sözügedən idarənin Gürcüstandakı layihə ofisinin rəhbəri Naidə Şamilova çıxış edərək təlimin gömrükçülərin strateji ticarət və ixrac nəzarəti barədə bilik və bacarıqlarını artırmağa geniş imkanlar yaradacağını bildiriblər. İyunun 19-dək davam edəcək təlimdə ekspertlər “BMT Təhlükəsizlik Şurasının 1540 nömrəli Qətnaməsi”, “Strateji Nəzarətin icmalı”, “Kütləvi Qırğın Silahlarının icmalı: Nüvə Kütləvi Qırğın Silahlarının icmalı: raketlər”, “Kütləvi Qırğın Silahları: kimyəvi, bioloji”, “Birləşmiş Millətlər Təşkilatının sanksiyaları və embarqoları”, “Faktın tədqiqi”, “Fırıldaqçılıq nümunələri və risk göstəriciləri” mövzularında təqdimatlar keçirəcək və müzakirələr aparılacaq. Sonda təlim zamanı iştirakçıların əldə etdikləri bilik və bacarıqlar yenidən qiymətləndiriləcək.

# Xüsusi karantin rejimi avqustun 1-dək uzadılıb

◂ əvvəli 1-ci səhifədə

Yeni rayonlararası və şəhərlərarası nəqliyyatın hərəkəti, idman, sağlamlıq, bərpa üzrə xidmətlər (burada tibbi xidmətlər istisna təşkil edir), mədəniyyət obyektlərinin, eləcə də kinoteatrların, teatrların, idman zallarının fəaliyyəti, hotellərin fəaliyyətinin bərpası, beynəlxalq səfərlər, dəfn mərasimləri istisna olmaqla dini ritual xidmətlərin, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkili xidmətləri, tədbirlərin təşkili, təhsil müəssisələrində fəaliyyətin dayandırılması, eləcə də 10 nəfərdən artıq qrupda cəmləşmə məhdudiyyətləri qüvvədə qalır”.

“Narıncı zonadakı Abşeron, Bakı, Sumqayıt, Gəncə, Lənkəran, Yevlax, Masallı və Cəlilabad şəhərində iki həftəlik ciddi karantin rejimi tətbiq olunacaq”.

Bunu isə Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında TƏBİB İdarə Heyətinin sədri Ramin Bayramlı bildirib. R. Bayramlı deyib ki, öncəki sərt karantin rejimindəki qadağalar yenidən qüvvəyə minəcək, sadəcə, Bakı Metropoliteni fəaliyyət göstərəcək, park və bulvarlara girişə icazə veriləcək. “İyunun 24-25-də keçiriləcək buraxılış və qəbul imtahanları ilə bağlı məsələ Operativ Qərargahda müzakirə olunub”. Leyla Abdullayeva bildirib.

O deyib ki, buraxılış və qəbul imtahanlarının təxirə salınması qərara alınıb: “Buraxılış və qəbul imtahanları ciddi karantin rejiminin tətbiq olunduğu müddətdə təxirə salınacaq və növbəti vaxta təyin ediləcək. Yalnız ola bilsin ki, Naxçıvan ərazisində bu imtahanların keçirilməsi nəzərdə tutulsun. Gələn həftə Təhsil Nazirliyi və Dövlət İmtahan Mərkəzi tərəfindən bununla bağlı açıqlama veriləcək”.

Qeyd edək ki, Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı ilə 21 iyun saat 00.00-dan 5 iyul saat 6.00-dək Bakı, Sumqayıt, Lənkəran, Yevlax, Cəlilabad, Abşeron, Gəncə və Masallıda ciddi karantin rejimi tətbiq olunacaq. Qəbul olunmuş qərarla avqust ayının 1-dək dövlət sərhədlərinin də bağlı qalması məsələsi qüvvədədir. Leyla Abdullayeva bildirib:

“Baxmayaraq ki, xüsusi karantin rejimi davam edir, amma ikitərəfli razılaşma əsasında vətəndaşlarımızın ölkəyə geri qaytarılması istiqamətində tədbirlər davam etdirilir. Həftə 17-18 iyun tarixlərində Türkiyədən xüsusi reyslərlə vətəndaşlarımız geri qaytarıldı. Geri qaytarılan vətəndaşlarımızın 48 saat öncədən koronavirus testindən keçməsi tələbi qoyuldu ki, bu təcrübənin avqustun 1-dək dövlətlərlə ikitərəfli razılaşma əsasında davam etdirilməsi nəzərdə tutulub”.

“İş rejimi ilə bağlı özəl və dövlət sektorunda çalışanlar şəxsi avtomobillərdən istifadə edə biləcəklər”. Leyla Abdullayeva belə bildirib. L. Abdullayeva deyib ki, bu məsələ Operativ Qərargahda müzakirə olunub və sabah geniş məlumat veriləcək. XİN rəsmisi onu da əlavə edib ki, xüsusi karantin rejimi günlərində metro ilə yanaşı, digər ictimai nəqliyyat növləri də fəaliyyət göstərəcək.

“Dağıstanda baş vermiş insidentlə bağlı Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev rəsmi açıqlama verib”. Leyla Abdullayeva Dağıstanda baş verən hadisəyə münasibət bildirərkən deyib.

L. Abdullayeva bildirib ki, vətəndaşların ölkəyə geri dönüşü ilə bağlı işlər davam etdirilməkdədir: “Bu gün Azərbaycan və Rusiya prezidentləri arasında telefon danışığı olub. İki ölkə sərhədində Azərbaycan vətəndaşlarının toplaşması da müzakirə olunub. Azərbaycan müxtəlif səviyyələrdə əldə olunmuş razılıqları mərhələli şəkildə həyata keçirir. Son bir ay ərzində 1000-ə yaxın vətəndaşımız Rusiyadan geri qaytarılıb. Rusiyadakı vətəndaşlarımızın geri qaytarılması “Evə gedirəm” portalı ilə, hava və quru yolu vasitəsilə keçirilir. İlkin mərhələdə xəstələr, yaşlılar, uşaqlı olanlara üstünlük verilir. Eyni zamanda portaldakı ardıcıllığa uyğun olaraq, vətəndaşlarımız geri qaytarılırlar. Təəssüf ki, vətəndaşlarımızın son zamanlar portalda qeydiyyatdan keçməyərək, yaxud da keçərək sərhədə toplaşması müşahidə olunur. Sərhədə yaxınlaşmaqla vətəndaşlarımız özlərinin və yaxınlarının sağlamlığını təhlükəyə atmış olurlar. Vətəndaşlarımızın Rusiyadan geri qayıtması vətəndaşların portaldan qeydiyyatdan keçməsi və prioritet kateqoriyalar üzrə təmin edilir. Vətəndaşlar qaldıqları yerdə gözləsinlər. Sərhədə yaxınlaşmaq tez keçmək anlamına gəlməməlidir”.

XİN-in Mətbuat xidməti idarəsinin rəisi qeyd edib ki, 9 iyunda 130, 16 iyunda 155 vətəndaşımız quru yolla, 17 iyunda isə 152 vətəndaşımız hava yolu ilə ölkəyə gətirilib: “Vətəndaşlarımızdan olduqları ölkələrin qanunlarına riayət etmələrini, səbirli olmalarını xahiş edirik”.

# Kosta Rika ilə Azərbaycan arasında gündən-günə genişlənən dostluq əlaqələri var

***Koronavirus pandemiyası Çində ortaya çıxsa da, qısa vaxt ərzində yayılma mərkəzini Avropaya, sonra isə Amerika qitəsinə dəyişdi. Nəticədə, bu gün ABŞ yoluxma (2,2 milyon nəfər) və ölüm faktına (120 min nəfərə yaxın) görə dünyada ilk sırada qərarlaşıb. Birləşmiş Ştatları bu kədərləndirici prosesdə Latın Amerikasının ən iri ölkəsi olan Braziliya təqib edir (935 min yoluxma və 46 min ölüm faktı qeydə alınıb). Meksika, Çili, Kanada və sair ölkələrdə də koronavirus pandemiyası sürətlə yayılaraq can almağa davam edir.***



**Jairo Francisco Lopez Bolanos,**
Kosta Rikanın Azərbaycanda keçmiş Müvəqqəti işlər vəkili olmuş, əziz dostumuz

Amma Amerika qitəsinin tam mərkəzində balaca bir dövlət var - Kosta Rika, orada pandemiya şəraiti qonşu ölkələrlə müqayisədə deyəsən bir az daha yaxşıdır. Hər halda 5,2 milyon nəfər əhalisi olan bu kiçik dövlət yoluxma sayına görə ÜST-ün siyahısında 105-ci pillədə yer tutmaqla vəziyyətin yaxşı olduğunu isbatlayır. Maraqlıdır, qitənin hər yerində virus tüğyan etdiyi bir vaxtda Kosta Rika necə nail olub sabitlik yaratmağa? İnternet üzərindən, Kosta Rikanın Azərbaycanda keçmiş Müvəqqəti işlər vəkili olmuş, əziz dostumuz Jairo Francisco Lopez Bolanosla söhbətləşərək bu ecazkar ölkədəki vəziyyətlə tanış olmağa cəhd göstərdim. Gəlin söhbətimizin mətni ilə müsahibəni oxuyaraq tanış olaq:

- Kosta Rika hazırda sərt karantin şəraitindən çıxış mərhələsini yaşayır. Artıq neçə ay idi ki, ölkədə fərqli məhdudiyyətlər tətbiq edilmişdi. Bu arada qeyd edim ki, Kosta Rikada ilk yoluxma faktı mart ayında qeydə alınıb və o gündən indiyədək cəmi 12 insanımız həyatını itirib. Statistika göstərir ki, Kosta Rika, məhdud büdcəsi olan, dünyada COVID 19 problemini ən yaxşı şəkildə həll edən ölkələrdən biridir.

Bizim ölkədə yoluxmuş insanlar üçün müalicə pulsuz aparılır. Ümumiyyətlə, Latın Amerikasında tibbi sahədə ən yüksək qiymətləndirilən ölkələrin siyahısında Kosta Rika ikinci sıradadır. Ölkəmizin sərhədləri əcnəbilərin üzünə bağlansa da, Kosta Rikada mövcud olan yüksək daxili miqrasiya kimi mühüm problemlər mövcuddur. Bu da təbii ki, yoluxma risqini artırır. Ancaq çətinlikləri yaşamış bir xalq olaraq hesab edirik ki, bütün problemlərin öhdəsindən gələrək, dünyaya örnək olaraq qala biləcəyik.

***- Qonşu ölkələr olan ABŞ və Meksika, başqa Latın Amerikası ölkələrində virus sürətlə yayılır. İndi baxıram, Kosta Rika 105-ci yerdədir ÜST-ün siyahısında. Ölkənizi necə qoruyursunuz virusa yoluxmadan, hökumətiniz bunun üçün hansı addımları atıb?***

- Latın Amerikası dünyada COVID 19-un ən çox vurduğu bölgələrdən biridir və bu, geriyə dönə bilməyəcəyimiz bir reallıqdır. Lakin Latın Amerikası həm də dünyanın ən həmrəy bölgələrindən biridir. Bizlər vətəndaşlarımızın və sakinlərimizin təməl hüquqlarına hörmətlə yanaşırıq, bu ideologiyaya əsaslanaraq bölgədəki yoluxma səviyyəsini azaltmaq üçün həmrəylik yolunu seçmişik. Qaldı ki, niyə Kosta Rikada digər latın ölkələrindən fərqli olaraq yoluxma sayı beelə kəskin azdır, ölkəmiz mart ayında sərhədlərini xarici vətəndaşların girişinə bağladı və paralel şəkildə turizm, ticarət, otellər, təhsil və digər bir çox sektorlara karantin tətbiq etdi. Bu da ilk başdan yoluxma risqini azaltdı. Ölkədə yoluxma nisbətinin aşağı olmasına imkan verən digər amil isə keyfiyyətli təhsil sistemimizdir. Kosta Rika yüksək savadlılıq dərəcəsinə malik ölkədir. Xalqımız əlləri yuma, şəxsi gigiyena qaydalarına əməl etmə kimi qaydalara ciddi əməl edir. Kosta Rika dünyanın nadir dövlətlərindən biridir ki, ölkə ərazisinin 98 faizi içməli su ilə təchiz edilib. Su isə təmizlikdir.

***- Necə bilirsiniz, virusla mübarizə məqsədilə Kosta Rikaya xaricdən dəstək verilib, yoxsa ölkəniz təkbaşına bu uğuru qazanıb? Ümumiyyətlə, Kosta Rikaya hansı xarici ölkələr yardım edib və ya əksinə sizin ölkəniz hansı xarici ölkəyə dəstək verib?***

- Xoşbəxtlikdən, Kosta Rika dövləti pandemiyanın ilk günlərindən dost ölkələr tərəfindən qoruyucu tibbi maskalar, virus aşkarlama testləri, bəzi süni tənəffüs havalandırıcıları və COVID 19-un müalicəsi üçün lazım olan digər tibbi materiallarla dəstəklənib. Konkret ölkələrin adlarını da çəkə bilərəm: Kanada, Çin, Kolumbiya, Birləşmiş Ərəb Əmirlikləri, Amerika Birləşmiş Ştatları və sair ölkələrdən Kosta Rikaya yardımlar edilib.

***- Bir çox ölkələr vaksin hazırlamağa çalışır. Maraqlıdır, Kosta Rikada vaksin hazırlamaq üçün alimlər iş aparır?***

- Kosta Rikanın bu sahədə bəzi üstünlükləri var. Nəzərdən qaçırmayın ki, ucuz qiymətə antifidik serum istehsalında dünya lideri olan Clodomiro Picado İnstitutu kimi dünyalarca məşhur təhsil mərkəzimiz mövcuddur. Alimlərimiz yoluxmuş, amma müalicə alaraq sağalmış insanlardan qan plazması götürərək analizlər aparıb, həmin plazmalar daha ağır xəstələrə uğurla nəql edilib. Bundan əlavə, dövlət universitetləri və sağlamlıq mərkəzləri səviyyəsində virusa qarşı peyvənd hazırlamaq üçün birgə tədqiqatlar aparılıb. Bu müstəvidə, Kosta Rika Ümumdünya Səhiyyə Təşkilatına, gələcəkdə bütün ölkələrin əlinin çatması üçün, hazırlanacaq vaksinin liberallaşdırılması təklifi ilə çıxış edib. Çünki ölkə var ki, həmin vaksini ala biləcək, amma bir çox dövlətlər də var ki, maddi imkanları aşağıdır.

***- Bu gün Kosta Rikada karantin qaydaları tətbiq edilirmi? İnsanların sərbəst hərəkətinə qadağa varmı?***

- İnsanların təməl hüquqlarına və fərdi azadlıqlarına hörmət məsələsində qabaqcıl ölkə olaraq, sərbəst hərəkət qadağaları məsələsi məhdudlaşdırılması ölkəmizdə milli səviyyədə ən çox müzakirə olunan mövzudur. Lakin qəbul edilən qərarlar nəqliyyat vasitələrinin hərəkətinə məhdudiyyət qoyulması, onların hərəkəti üçün vaxt boşluqlarının yaradılması, habelə son vaxtlar hərəkətin məhdudlaşdırılması ilə əlaqədardır. Yəni həftənin müəyyən bir günü, səhər saat 5:00 - 19:00 arasında hərəkət azadlığı verilib.

Digər tərəfdən, bütün əyləncə mərkəzləri, muzeylər, kinoteatrlar, restoranlar, teatrlar, eləcə də, ölkənin bütün milli parkları, ictimai parkları və çimərlikləri bağlandı. Hazırda bu məhdudiyyətlər tədricən aradan qaldırılır və virusun yayılmasının necə inkişaf etməsindən asılı olaraq digər məhdudiyyətlər də tezliklələğv ediləcək.

***- Kosta Rika ilə Azərbaycan arasında pandemiyanın qarşısını almaq üçün əməkdaşlıq edilirmi?***

- Kosta Rika ilə Azərbaycan arasında gündən-günə genişlənən və uzun müddətdir davam edən dostluq əlaqələri var. Biz artıq bir-birimizi daha yaxşı tanıyan və bir-birimizi dəstəkləməli olduğumuzu bilən ölkələrik. Kosta Rika daxili iqtisadiyyatın inkişafı üçün turizmin vacib olduğu ölkədir və sərhədlərimizi bağlayarkən çox sayda vətəndaşımızın gəlirləri azaldı və ya tamamilə kəsildi. Azərbaycan neft ölkəsidir və pandemiya şəraitində qlobal müstəvidə tələbatın azalması səbəbindən neft qiymətləri aşağı düşdüyü üçün zərər görüb. Biz fərqli reallıqlara malik, lakin iqtisadiyyatı pandemiyanın zərbəsinə məruz qalmış ölkələrik. Bu səbəbdən də yalnız ortaq və orijinal həll yolları axtarmaq üçün birləşərsək, irəli gedə bilərik. Xəstəliyin yayılmasının qarşısını almaq üçün ölkələrimiz arasında birliyin olması lazımdır və həm də elə etməliyik ki, əhaliyə xərclənən müalicə xərcləri dövlət büdcəsinə çox ağır yük olmasın. İqtisadiyyatımızı inkişaf etdirməyin yeni yollarını tapmalıyıq və bunu ancaq dünyanın bütün ölkələri ilə əməkdaşlıq şəraitində edə bilərik.

✍ ***Vüsal***

## GÜNÜN TƏZADLARI

### "PKK" tərəfdarı özünü Baş nazirin avtomobilinin altına atdı



■ **London polisi özünü Baş nazir Boris Consonun avtomobilinin təkərləri altına atan "PKK" terrorçularının tərəfdarını saxladı. Hafta.az bu barədə xəbər verir.** Qeyd edilir ki, o, PKK-nın 10 tərəfdarı tərəfindən Britaniya parlamentinin binası qarşısında təşkil edilmiş etiraz aksiyasında iştirak edib. Boris Consonun avtomobili parlamentdən uzaqlaşanda kişi özünü avtomobilin təkərləri altına atıb. Bu zaman Consonun xidməti avtomobilinin sürücüsü qəfil əyləci basıb, nəticədə, baş nazirin xidməti avtomobili ilə mühafizəçi kolonun avtomobili arasında qəza təhlükəsi yaranıb. Britaniya polisi terrorçuların tərəfdarını saxlayıb və parlament binasının daxilindəki bölməyə aparıb. Ölkə hakimiyyəti hadisə zamanı Consonun avtomobildə olduğunu təsdiqləyib.

"PKK" 2011-ci ildən Böyük Britaniyada terror təşkilatlarının siyahısına daxil edilib. Krallığın qanunlarına görə terror təşkilatına üzvlüyə görə azadlıqdan 10 il müddətinə məhrumetmə cəzası nəzərdə tutulur.

### 4 yaşlı Zəhranın başı adı çəkilməyən iş adamı tərəfindən əməliyyat etdirildi



■ **Dağıstanda yaşayan, başında anadangəlmə hidrosefaliya xəstəliyi və həmçinin psixo-nitq inkişafında ləngimə olan 4 yaşlı Zəhra Məmmədova naməlum xeyriyyəçi tərəfindən əməliyyat etdirildi.** Hafta.az xəbər verir ki, 2016-cı ildə Həştərxanda qızın başında şuntlama əməliyyatı keçirilib. Əvvəlcə hər şey yaxşı olub. Sonradan körpənin başında yenidən şişkinlik başlayıb və şuntları əvəz etmək üçün ikinci əməliyyat tələb olunub. "İnsan» Xeyriyyə Fondu bunun üçün vəsait toplantısı elan edib. Nəticədə adının açıqlanmasını istəməyən bir xeyriyyəçi əməliyyatın xərcini öz üzərinə götürüb. "Ailə bir neçə ay öncə kömək üçün fonda müraciət etdi. Həştərxanda şuntlama əməliyyatı üçün böyük məbləğ tələb olunurdu. Bir xeyriyyəçi Zəhraya kömək etməyi öz öhdəsinə götürüb və əməliyyat üçün tələb olunan vəsaitin hamısını ödəyib. Ancaq yardım edənin istəyi ilə onun adını açıqlaya bilmirik. Hər gün bizə bu cür müraciətlərin sayı getdikcə daha çox olur", - "İnsan» Fondundan bildirilib. Balaca Zəhra artıq əməliyyat edilib. Hər şey qaydasında keçib. Hazırda palatada olan qızcığazın vəziyyəti stabildir.

### Türmədən qaçan dustaqlar geri dönəcəklərini vəd etdilər



■ **Romada məhbuslar həbsxanadan qaçış vaxtı izahedici məktub qoydular. Hafta.az xəbər verir ki, bu barədə "la Repubblica" qəzeti bildirib.** Qeyd edilir ki, yaxın qohum olan Lil Ahmetoviç və Davad Zukanoviç iyunun 3-də gecə saatlarında Romanın Rebibbya həbsxanasından qaçıblar. Onlar kameranın barmaqlıqlarını mişarlayıblar. Məhbusların qaçışı yalnız iki-üç saat sonra məlum olub.

Lil Ahmetoviç və Davad Zukanoviç öz hərəkətlərinin səbəbini kamerada qoyduqları məktubda izah ediblər. Onların dediklərinə görə, qaçış dərin şəxsi səbəblərlə şərtlənib. Xalaoğlular övladlarının narkotik şəbəkəsindən qurtarmağa qərar veriblər. Məhbusların övladlarına yalnız onların ataları kömək edə bilərdilər. Çünki onların anaları da həmçinin həbsxanada cəza çəkir. Məhkumlar işlərini həll edən kimi həbsxanaya qayıtmağa söz veriblər və məktubu imzalayıblar. Onların fikrincə, buna iki həftə vaxt lazım ola bilərdi.

Məktubda göstərilmiş müddət çərşənbə günü başa çatıb, lakin məhbuslar həbsxanaya könüllü şəkildə qayıtmayıblar, əksinə, onları Romadan 340 kilometr məsafədəki Pizedə yaxalayıblar. İlkin informasiyaya görə, qohumlar paytaxtda oğurlanmış avtomobildə Toskanaya çatıblar. Saxlanılma əməliyyatının gedişatında onlar müqavimət göstəriblər və karabinerlərdən birinə yüngül xəsarət yetiriblər. Yaxın qohumlar həbsxanaya dələduzluq və bir sıra mülki cinayətlərə, o cümlədən satınalınmaya və oğurluq malın saxlanılmasına görə düşüblər. Onlar 2029-cu ildə azadlığa çıxmalı idilər. Lakin indi xalaoğluların cəza müddətinə qaçışa görə 5 il əlavə edilə bilər. İstintaq Ahmetoviçin və Zukanovçin iki həftə boyunca polisdən gizlənməsinə kimin kömək etdiyini araşdırmalıdır.

### Paytaxt meri maaşını azaltdı



■ **London meri Sadiq Xan koronavirus pandemiyası fonunda özünün və meriya əməkdaşlarının maaşlarını azaltdı.** Hafta.az bu barədə xəbər verir. Bildirilir ki, Xan maaşını 10 faiz azaltmağa qərar verib. Beləliklə, 2020-ci ildə onun məvacibi 15,3 min funt azalacaq. Həmçinin meriyanın yüksək vəzifəli əməkdaşlarının da maaşları azalıb. Belə qərarın səbəbi koronavirus infeksiyasının Londonun büdcəsinə "dağıdıcı təsiri olub". Pandemiya başlayandan nəqliyyat, həmçinin biznes gəlirləri kəskin azalıb.

✍ *Sultan Laçın*

# Amerika ictimaiyyətinin erməni təcavüzü barədə məlumatlandırma kampaniyası keçirilir

**ABŞ Azərbaycanlılar Şəbəkəsi Amerika ictimaiyyətini erməni təcavüzü və Azərbaycanın işğal edilmiş ərazilərində qeyri-qanuni yollar tikintisi barədə məlumatlandırma kampaniyasına başlayıb.**

Bununla əlaqədar Amerika qanunvericilərinə, Tramp administrasiyasına və kütləvi informasiya vasitələrinə müraciət göndərilib. Müraciətdə deyilir ki, Ermənistan sülh danışıqlarını pozmaqda davam edir və beynəlxalq hüququn əsas prinsiplərinə riayət etmək barədə beynəlxalq birliyin çağırışlarına etinasızlıq göstərir. Qeyd olunur ki, Paşinyan administrasiyası bu yaxınlarda Ermənistanı Azərbaycanın işğal edilmiş əraziləri ilə birləşdirən üçüncü (işğal edilmiş Laçın və Kəlbəcərə çəkilmiş yollardan sonra) yol çəkiləcəyini elan edib. Ermənistanın hakimiyyət orqanları işğal altında olan Qubadlı və Cəbrayıldan keçməklə Qafanı işğal altında olan Hadrut şəhəri ilə birləşdirmək niyyətindədirlər.

Məktubda qeyd edilir ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü və Azərbaycan ərazisinin beşdəbir hissəsini işğal etməsi faktı özlüyündə beynəlxalq hüququn əsas prinsiplərinin ciddi pozuntusudur. Lakin 1994-cü ildən bəri Ermənistanın qanunsuz yolla əldə etdiyi ərazilərin konsolidasiyası üçün törətdiyi əməllər müharibə dövründə və müharibədən sonra humanitar davranış baxımından beynəlxalq hüquq standartları barədə digər fundamental konvensiyalara da ziddir. 25 ildən artıq müddətdə rəsmi Yerevan diaspordan olan etnik erməniləri cəlb etmək və erməni mənşəli Suriya qaçqınlarını yerli azərbaycanlılardan təmizlənmiş torpaqlara köçürmək yolu ilə yerli azərbaycanlılardan təmizlənmiş işğal altında olan rayonları məskunlaşdırmağa çalışır.

Azərbaycanın işğal olunmuş ərazilərinə yollar çəkilməsinin bir neçə məqsədi var, o cümlədən erməni qoşunlarının Ermənistandan Azərbaycanın işğal altında olan rayonlarına köçürülməsinə kömək, münaqişə zonasına xarici turistlərin cəlb edilməsi, erməni diasporunun işğal olunmuş ərazilərdə sərmayə qoymağa stimullaşdırılması və Azərbaycanın təbii ehtiyatlarının istismar edilməsi məqsədilə işğal olunmuş ərazilərdə qeyri-qanuni məskənlər salınmasının təşviq edilməsi. Müraciətdə qeyd edilir ki, bu, 1949-cu il Cenevrə Konvensiyasının 49-cu maddəsinin açıq-aşkar pozulmasıdır və beynəlxalq birlik Ermənistan rəhbərliyinə öz narazılığını bildirməlidir.

Azərbaycan icmasının üzvləri ATƏT-in Minsk qrupunun üç həmsədrindən biri olan ABŞ-ın hökumətinə müraciət edirlər. Yol tikintisi həm Ermənistan, həm də Azərbaycan tərəfindən qəbul edilmiş Madrid prinsiplərinə əsaslanan sülh danışıqlarını daha da mürəkkəbləşdirir.

Xatırladaq ki, 1993-cü ilin aprel-noyabr aylarında BMT Təhlükəsizlik Şurası Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən işğalını pisləyən, erməni silahlı qüvvələrinin həmin ərazilərdən qeyd-şərtsiz və dərhal çıxarılmasını, azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına qayıtmaları üçün şərait yaradılmasını tələb edən 822, 853, 874, 884 nömrəli qətnamələr qəbul edib. 2008-ci ilin martında BMT Baş Assambleyası beynəlxalq birliyin Təhlükəsizlik Şurasının qətnamələrində ifadə olunmuş mövqeyini bir daha təsdiq edən 62/243 nömrəli qətnamə qəbul edib. BMT Təhlükəsizlik Şurasının bu qətnamələri əsasında müxtəlif ölkələrin və beynəlxalq təşkilatların qanunvericilikləri tərəfindən işğalçı erməni qüvvələrinin Azərbaycan ərazisindən çıxarılmasını tələb edən onlarca başqa qətnamə qəbul edilib.

✍ ***Hafta.az***

# Kaliforniya radiosunda daşnakların Hitlerə rəğbətindən danışılıb

**Kaliforniyanın San Dieqo şəhərində fəaliyyət göstərən, ABŞ-da nəşr olunan "Dağlarda qətl: Xocalıda hərbi cinayət və Dağlıq Qarabağ münaqişəsi" və "Erməni lobbisi və ABŞ-ın xarici siyasəti" kitablarının müəllifi jurnalist Raul Kontreras (Raoul Contreras) özünün "The Contreras Report" radio proqramında ötən ay Azərbaycanın Los Ancelesdəki Baş Konsulluğunun ABŞ Konqresi arxivlərində apardığı araşdırma nəticəsində aşkar edilib və erməni daşnaklarının Hitlerə və Holokost soyqırımına rəğbət bəslədiklərini ifşa edən sənəd haqda dinləyicilərə məlumat verib.**




Azərbaycan Respublikasının Los Ancelesdəki Baş Konsulluğundan hafta.az-a verilən məlumata görə, verilişdə müəllif 1945-ci ildə ABŞ Nümayəndələr Palatasının Miçiqan ştatından olan üzvü, konqresmen Frank Hook-un erməni daşnaklarının Hitlerə və Holokosta rəğbət bəsləmələri, irqçi meylləri, habelə onların ABŞ ərazisində törətdikləri terror aktları barədə məqaləni Konqresin plenar iclasina təqdim etdiyini deyərək, həmin sənəddən çoxlu sayda sitatlar gətirərək məsələ ilə bağlı ətraflı müzakirələr aparır.

R. Kontreras İkinci Dünya müharibəsi illərində faşist Almaniyası ordusu tərkibində yaradılmış Erməni Legionu, onun rəhbərlərindən olan erməni generallar Qaregin Njde və Drastamat Kanayan haqda ətraflı danışaraq, onların bu gün Ermənistanda milli qəhrəman səviyyəsinə qaldırıldığını, 2016-cı ildə Yerevanda Q. Njdeyə heykəl ucaldıldığını vurğulayır. Jurnalist ABŞ-da əsas erməni lobbi təşkilatı olan Amerika Erməni Milli Komitəsinin (ANCA) radikal və iqrçi daşnakların davamçısı olduğunu, onların bir sıra ABŞ konqresmenlərini ələ alaraq Ermənistana ABŞ tərəfindən maddi yardımın ayrılmasına nail olmağa çalışdıqlarını diqqətə çatdırır. O, həmin vəsaitlərin ABŞ vergiödəyicilərinin pulları əsasında formalaşdığını deyərək, bunu yolverilməz adlandırır. R. Kontreras daha sonra Ermənistanın ölkəmizə qarşı təcavüzü, Azərbaycanın Dağlıq Qarabağ bölgəsini və ətraf rayonlarını işğal etdiyini qeyd edir. Verilişdə jurnalist həmçinin erməni terror təşkilatı olan ASALA-nın ABŞ-dakı fəaliyyəti, xüsusilə türk diplomatlarına qarşı həyata keçirilən terror aktları haqda da ətraflı bəhs edir.

✍ ***Hafta.az***

# İran yeni raketini sınaqdan keçirib



**İranın Hərbi Dəniz Qüvvələri uzaq hədəfləri vurmaq üçün nəzərdə tutulan raketi uğurla sınaqdan keçirib. Hafta.az xəbər verir ki, bu barədə İranın Müdafiə Nazirliyinin açıqlamasında deyilir.**

Qeyd olunub ki, Hind okeanı və Oman körfəzində keçirilən hərbi təlimlər zamanı sınaqdan keçirilən yeni raketlə 280 kilometr məsafədəki hədəf dəqiqliklə vurularaq məhv edilib. İran Silahli Qüvvələrinin Baş Qərargah rəisi general Məhəmməd Baqeri parlamentin qapalı iclasında çıxış edərək ölkənin hərbi büdcəsinin artırılmasını istəyib. O bildirib ki, bölgədəki hərbi-siyasi vəziyyət nəzərə alınaraq hərbi büdcəyə əlavə vəsait ayırmaq lazımdır.

# Bakının iki rayonuna yeni prokuror təyin edilib

**Prokurorluq orqanlarında yeni təyinatlar olub. APA-nın məlumatına görə, bu barədə Baş prokuror Kamran Əliyev müvafiq əmr imzalayıb.**

Əmrə əsasən, Quba rayon prokuroru Elman Süleymanov tutduğu vəzifədən azad edilərək Yasamal rayon prokuroru vəzifəsinə təyinat alıb. Baş prokurorun imzaladığı digər əmrlə Pirallahı rayon prokuroru İbrahim Ləmbəranski tutduğu vəzifədən azad edilərək Sabunçu rayon prokuroru vəzifəsinə təyin olunub.

# Kür çayı niyə quruyur?

## Mütəxəssislər hesab edirlər ki, mövcud problemin həlli üçün çay boyunca əsaslı şəkildə tədqiqatlar aparılması zəruridir

**_Son illər Kür çayında suyun azalması müşahidə edilir. Bu il isə Kürdə suyun səviyyəsi kəskin şəkildə aşağı düşüb və bəzi yerlərində çay yatağının akkumulyativ sahilləri tamamilə sudan azad olub, adalar əmələ gəlib. AMEA akademik H.Ə.Əliyev adına Coğrafiya İnstitutunun əməkdaşları mövcud problemlə bağlı 3 gün müddətində Neftçala və Sabirabad rayonlarında ezamiyyətdə olublar. Coğrafiya İnstitutundan verilən məlumata görə, alimlər Azərbaycanın baş su arteriyası olan Kür çayında suyun səviyyəsinin iyun ayında, yəni suya tələbatın artdığı yay fəslinin başlanğıcında kəskin şəkildə azalmasını, hətta Neftçala rayonunun Xıllı məntəqəsindən çayın mənsəbinə qədər olan yatağın tamamilə dəniz suları ilə tutulmasını müşahidə ediblər._**



Onlar bildiriblər ki, bu vəziyyət çayın deltasında və ona yaxın ərazilərdə sıx məskunlaşmış əhalinin su ilə təminatında ciddi problemlər yaradıb. Xıllı məntəqəsi ilə Salyan şəhəri arasında Kür çayı dəniz suyu ilə qarışmış halda və ya, az da olsa, çay suyu şəklində axır. Çayın bu hissəsində vaxtilə 100-150 m enində yataqboyu su axdığı halda, hazırda səviyyənin kəskin şəkildə azalması ilə əlaqədar olaraq sulu yatağın eni bəzi yerlərdə 4-5 m-ə qədər azalıb. Çay yatağı boyunca ölçülərini tez-tez dəyişən uzunsov adalar əmələ gəlib. Bəzi yerlərdə çay yatağının akkumulyativ sahilləri tamamilə sudan azad olub. Kür çayında suyun azalması ilə adaların əmələ gəlməsi və ya yatağın quru hissələrinin genişlənməsi prosesi Sabirabad rayonunda və həmçinin Araz çayının yatağında da müşahidə edilib.

Tədqiqatçılar çayda suyun azalmasının və dəniz suyunun çay dərəsinə dolmasının bir neçə səbəbini aydınlaşdırıblar: "Bunlardan birincisi Xəzər dənizi səviyyəsinin dövrü olaraq qalxıb-enməsi ilə əlaqədar aşağı axında çayda dib eroziyasının tez-tez dəyişməsi və çay dərəsinin dibinin dəniz səviyyəsindən aşağı düşməsidir. İkinci səbəb Kür çayının bu hissəsində asılı materialların kəskin azalması, üçüncü səbəb çay yatağında gedən eroziya proseslərinin dəyişməsidir. Dördüncü, əsas amillərdən biri Xəzər dənizinin Neftçala sahilləri üçün xarakterik olan şərq, şimal-şərq və cənub-şərq istiqamətli küləklərin təsiri ilə dəniz suyunun Kür çayının mənsəbinə və yataqboyu çay axınının əksinə qovularaq çay məcrasının doldurulmasıdır. Beşinci səbəb Kür və Araz çayları boyunca, eyni zamanda, Kürün qolları üzərində mövcud olan qum-çınqıl karxanalarının təsiri, Altıncı səbəb isə Kür çayının su potensialı ilə istehlakçı arasında münasibətlərin düzgün idarə edilməməsidir. Kür çayında məcra prosesləri çox mürəkkəb olduğu üçün digər səbəblərin də mövcudluğu qaçılmazdır. Bütün bu problemlərin həlli Kür çayı boyunca əsaslı şəkildə kompleks hidroloji, iqlim, hidrogeoloji, geomorfoloji, landşaft və hidroiqtisadi tədqiqatlar aparmağı tələb edir".

Xatırladaq ki, Azərbaycanın yerüstü su ehtiyatlarının 19-20,6 kubkilometri transsərhəd çayların, 9,5-10 kubkilometri isə yerli çay axımı hesabına formalaşır. Respublikanın əsas su arteriyaları olan Kür və Araz çayları ölkə ərazisinə daxil olana qədər müxtəlif kimyəvi element və birləşmələrlə, üzvi maddələrlə çirklənməyə məruz qalır. Sərhəd xətlərində bu çayların sularında neft məhsulları, fenollar, mis, bismut, titan, manqan və digər elementlər yol verilən qatılıq həddindən artıqdır. Ermənistan ərazisindən Azərbaycana daxil olan Araz çayında çirklənmə dərəcəsi digər çaylardan daha çoxdur. Çay suları respublika ərazisində də müxtəlif mənşəli çirklənmələrə məruz qalır.

Respublika ərazisindəki irili-xırdalı 8359 çaydan yalnız 171-nin uzunluğu 25 kilometrdən artıqdır. 327 çayın uzunluğu 25 kilometrdən, 7861 çayın uzunluğu isə 10 kilometrdən azdır. Hesablamalara görə, Azərbaycanda çay şəbəkəsinin orta sıxlığı 0,39 kubkilometr təşkil edir. Çay şəbəkəsinin ən böyük sıxlığı Lənkəran (0,84 kilometr/kvadratkilometr), ən az sıxlığı isə Ceyrançöl və Abşeron-Qobustan (0,20 kilometr/kvadratkilometr) bölgələrinin payına düşür. Təbii şəraitdə respublikada çay suları şirin sulu olmaqla ümumi minerallaşma dərəcəsi 0,3-0,5 qram/litr səviyyəsindədir. Çay sularının kimyəvi tərkibində hidrokarbonat və kalsium ionları üstünlük təşkil edir. Ceyrançöl və Abşeron-Qobustan çaylarının suları isə 0,5-1,5 qram/litr və daha çox minerallaşma dərəcəsi ilə sulfatlı natriumlu kimyəvi tərkibə malikdir.

Azərbaycanda çayların yerüstü axını hidroloji ildən və mövsümlərdən asılı olaraq kəskin dəyişir. Bu dəyişkənlikdən asılılığı azaltmaq və il ərzində istifadə oluna biləcək etibarlı su mənbələrinə malik olmaq məqsədi ilə bir sıra çayların üzərində su anbarları yaradılıb. Respublikamızda 140-a qədər su anbarı var. Bunların ən böyükləri Kür çayı üzərindəki Mingəçevir (həcmi 16 milyard kubmetr), Şəmkir (həcmi 2,6 milyard kubmetr), Araz çayı üzərindəki Araz (həcmi 1,3 milyard kubmetr), Tərtər çayı üzərindəki Sərsəng (həcmi 0,5 milyard kubmetr) su anbarlarıdır. Su anbarlarının ümumi sahəsi 87 min hektar, suyunun həcmi isə 22 kubkilometrə yaxındır.

Azərbaycan ərazisində ümumi sahəsi 394 kvadratkilometr olan 450-yə yaxın göl mövcuddur ki, bunlardan da 200-ə yaxını yay aylarında quruyur. Göllərin ümumi su ehtiyatı 0,9 kubkilometrə, şirinsulu göllərin ehtiyatı isə 0,03-0,05 kubkilometrə yaxındır. Azərbaycan ərazisində buzlaqlar əsasən Böyük Qafqaz dağlarının Baş Suayrıcında və Yan Silsilədə mütləq yüksəkliyi 3600-4000 metrdən artıq olan ərazilərdə formalaşıb. Son 70 ildə dağ zirvələrindəki buzlaqların sahəsi xeyli azalıb. Hazırda buzlaqların sahəsi təqribən 6,6 kvadratkilometr, su ehtiyatı isə 0,08 kubkilometr təşkil edir. Buzlaqlar Bazardüzü zirvəsində 3,6 kvadratkilometr, Bazaryurdda 1 kvadratkilometr, Tufandağda 0,5 kvadratkilometr, Şahdağda isə 1,1 kvadratkilometr sahəni əhatə edir. Kiçik Qafqazda yalnız Qapıcıq dağında sahəsi 0,15 kvadratkilometr olan buzlaq mövcuddur. Buzlaqlar çayların qidalanmasında və ilik su ehtiyatlarının tənzimlənməsində mühüm rol oynayır.

Respublikanın istifadəyə yararlı yeraltı sularının illik istismar ehtiyatları isə 9 milyard kubmetrə yaxındır. Yeraltı suların əsas ehtiyatları Samur-Dəvəçi, Şəki-Zaqatala, Gəncə-Qazax, Mil-Qarabağ, Cəbrayıl, Naxçıvan dağətəyi düzənliklərində toplanıb. Bu ehtiyatların 60 faizə yaxını Samur-Dəvəçi, Şəki-Zaqatala və Gəncə-Qazax dağətəyi düzənliklərinin ərazisində yerləşir.

Su ehtiyatlarının azalması barədə fikirlərini bölüşən Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Firdovsi Əliyev deyib ki, Azərbaycan dünyanın bir hissəsi olduğuna görə, həmin məsələlərin aktuallığı ölkəmizdə də özünü göstərir: "Qlobal istiləşmə hazırda bütün dünyada çox böyük narahatlığa səbəb olur və təbiətdə mövcud olan suyun miqdarına da təsir göstərir. Beynəlxalq qurumların hesablamalarına görə, su ehtiyatlarının həcminə görə Azərbaycan 105-ci yerdədir. Cənubi Qafqazda olan su ehtiyatlarının yalnız 15 faizi ölkəmizin payına düşür. Azərbaycanın suya olan tələbatının 70 faizi Kür, Araz, Samur və digər çaylar vasitəsilə xaricdə formalaşır. Əslində ölkəmizdə su ehtiyatlarının vəziyyəti kritik deyil, lakin havaların isti keçməsi onu həmin həddə yaxınlaşdıra bilər. On ilin proqnozları göstərir ki, son yüz ildə planetin əhalisi 7 dəfə artıb. Təbii ki, bu da suya tələbatın artmasına səbəb olur. Digər tərəfdən son on ilin proqnozlarına əsasən, ölkəmizə düşən yağışların miqdarı 8,7 faiz azalıb və qarşıdakı on ildə isə yağıntıların 8 faiz azalacağı ehtimal edilir. Bu il yerli mütəxəssislərin apardığı qarölçmə işlərinin nəticəsi göstərir ki, əvvəlki illərlə müqayisədə qarın səviyyəsi 17 faiz düşüb. Əlbəttə, bunlar məsələnin həddindən artıq aktuallığını bir daha ortaya qoyur və planetdə gedən qlobal istiləşmə su ehtiyatlarına da öz təsirini göstərmiş olur".

Nazir müavini vurğulayıb ki, həyatın mövcudluğu üçün su çox mühüm faktordur və hər bir vətəndaş özündə istehlakçı məsuliyyəti hiss etməli, hansı qurumda və harada çalışmasından asılı olmayaraq, hər yerdə sudan qənaətlə istifadə etməlidir: "Belə şəraitdə iri su istehsalçıları suyun təkrar istehsalı haqqında düşünməlidirlər. İlkin hesablamalara görə, bir kubmetr çirkli su 40-50 kubmetr təmiz suyu çirkləndirərək yararsız hala salır. Ölkəmizdə qəbul edilən "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Qanunun tələblərinə uyğun olaraq iri müəssisələr tikinti-quraşdırma işləri aparארkən istismar edilən suyun hara axıdılmasına diqqət yetirməlidirlər. Təəssüf ki, əksər hallarda istifadə edilən su sututarlara, göllərə, çaylara və Xəzərə axıdılaraq ətraf mühitin çirklənməsinə səbəb olur".

**Sevinc**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ekologiya və ətraf mühitin mühafizəsi

# Şənbə və bazar karantini zamanı onlayn alış-veriş praktikasını tətbiq etmək olarmı?

**TƏBİB alış-verişlərlə bağlı vətəndaşlara müraciət edib. Müraciətdə hər kəsə koronavirus (COVID-19) pandemiyası dövründə alış-verişin onlayn edilməsi tövsiyə olunur:**




"Dostlar və əzizlərinizlə virtual görüşlərə üstünlük verin. Ehtiyac olmadıqda, kütləvi məkanlara getməyin. Bununla siz ölkəmizdə koronavirus infeksiyasının yayılmasının qarşısının alınmasına kömək ola bilərsiniz".

Azərbaycanda iyun ayı ərzində şənbə və bazar günləri sərt karantin rejimi tətbiq olunur. Vətəndaşlar iki gün evdən çıxa bilməyəcəklərinə görə marketlərə axın edirlər. Nə qədər sosial izolyasiya tələblərinə əməl etsələr də, yoluxma riski böyükdür. Bəs iki günlük karantin rejimi çərçivəsində onlayn alış-veriş sistemi yaratmaq olarmı?

■ **Bu barədə hafta.az-a danışan iqtisadçı ekspert Natiq Cəfərli dedi ki, kuryer xidməti göstərənlərin çoxu rəsmi müqavilə ilə çalışmır, onlar günəmuzd işləyirlər, onların icazə alması problemli məsələdir:** "Əslində, onlayn ticarət dünyada çox geniş yayılıb. Azərbaycanda da bu praktikanın geniş yayılması üçün işlər görülməlidir. Bu, çox ciddi məsələdir.

Təəssüf ki, dövlətin bu məsələdə diqqətsiz olması, eləcə də əhalinin davranış qaydası onlayn alış-verişə öyrəşməməsi bu sahənin axsamasına səbəb olur. Əgər bu həftə də karantin rejimi olacaqsa mağaza və anbarların kuryer xidmətləri işlək olmalıdır. Açığı, indidən görünən odur ki, belə şeyə icazə verilməyəcək. Bu texniki olaraq necə həyata keçirilməldir, hələ ki, aydın görünmür. Bazar günlərinin sərt karantin rejiminin dəyişdirilməsi gündəmə gəlmədiir. Təbiq olunan qərar məntiqli və effektli deyil. Ümid edək ki, bu həftə qərar başqa cür olar. Onlayn ticarətlə məşğul olmaq üçün formul tapılmalıdır".

■ **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə bildirdi ki, onlayn alış-veriş edən vətəndaşlar vardır ki, onların hüququ pozulub və onlar da bizə şikayət ediblər:** "Onlayn xidmət göstərən şirkətlər istehlakçıların tələbinə uyğun olmayan mallar satırlar. Bu halda istehlakçı onu qaytarmaq istədikdə şirkət yoxa çıxır. Ərzaq mallarında belə halda çeklər də təqdim etmirlər. Biz şəxsən bildiririk ki, onlayn alış-veriş edən şəxslər də çek tələb etsinlər. Əgər hər hansı fors-major hal yaranarsa, geri təqdim etmə imkanları olsun. Əlbəttə, problemlərdən biri də odur ki, onlayn satan şirkətlər vaxtıkeçmiş məhsullar təqdim edirlər. Elə hesab edirlər ki, istehlakçının nəzərindən yayınacaq, xəbəri olmayacaq. Ancaq bu kimi hallarla bağlı bizə çoxlu şikayət olur. Ərzaq mallarının buraxılış vaxtı dəyişdirilir ki, onu müəyyən etmək bir qədər çətindir. Vətəndaşlara müraciət edirəm ki, diqqətli olsunlar. İstehlakçılar yumurta, təzə toyuq ətlərinə üstünlük versinlər. Onlayn çatdırma edən şirkətlərdən bu barədə məlumat almaqla kifayətlənməsinlər. Çünki onlar özləri elə aldada bilərlər".

**Ruzbeh**

# Azərbaycana 41 təcili tibbi yardım avtomobili və Ambulans-Perinatal gətirilib

**Ölkə üzrə icbari tibbi sığortanın tətbiqi məqsədilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən respublikaya ümumilikdə 41 ədəd olmaqla, 39 ədəd yeni, müasir avadanlıqlarla təchiz olunan təcili tibbi yardım avtomobili və 2 ədəd Ambulans-Perinatal gətirilib.** Agentlikdən hafta.az-a verilən xəbərə görə, Ambulans-Perinatal tibb müəssisələrində anadan olan patoloji yenidoğulmuşların burada göstərilməsi mümkün olmayan tibbi xidmətləri almaları üçün müvafiq perinatal mərkəzlərə çatdırılmasını həyata keçirəcək. Bu avtomobillər yenidoğulmuşlara ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsi üçün bütün lazımi tibbi avadanlıqlar və küvez aparatları ilə təchiz ediliblər. Qeyd edək ki, respublikaya gətirilən yeni, müasir standartlara cavab verən Ambulans-Perinatal ölkə səhiyyəsində yenilikdir. 39 ədəd təcili tibbi yardım avtomobilinin salonlarının təchizat səviyyəsi xəstələrə bütün lazımi ilkin, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsinə və reanimasiya tədbirlərinin icra olunmasına imkan verir. Avtomobillər bir sıra özünəməxsus özəlliklərə malikdirlər. Belə ki, ambulanslar kardiomonitor, 3 növ xərək, vakuum şinalar, salondakı hərarəti tənzimləmək üçün klimat-kontrol, işıqlanma sistemi (evimə qədər ötür) və s. xüsusiyyətlərlə təchiz ediliblər.



Avtomobillər ölçü baxımından kiçik olmaları ilə də fərqlənirlər. Bu da onlara tıxac və ya dar olan küçələrdə sərbəst manevr etməyə imkan verir. Həmçinin avtomobillər daha az yanacaq sərf edirlər. "Fiat" markalı "Doblo" modeli təcili tibbi yardım avtomobilləri Türkiyə Respublikasında istehsal olunublar. Qeyd edək ki, təcili tibbi yardım avtomobilləri Bakı şəhər Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasına (15 ədəd), Sumqayıt şəhər Təcili Tibbi Yardım Stansiyasına (10 ədəd) və Abşeron rayon Təcili Tibbi Yardım Stansiyasına (7 ədəd) təhvil veriliblər. Bu ilin sonuna kimi 41 ədəd təcili tibbi yardım avtomobilinin və 2 ədəd Ambulans-Perinatalın ölkəyə gətirilməsi nəzərdə tutulub.

# İşsizlikdən sığorta ödənişlərinin şərtləri yumşaldılacaq




**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "İşsizlikdən sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun layihəsi hazırlanıb. Layihədə işsizlikdən sığorta ödənişlərinin şərtlərinin yumşaldılması və bu ödənişlərin əhatə dairəsinin genişləndirilməsi üçün təkliflər əksini tapır.**

Mövcud qanunvericilikdə müəssisənin ləğvi və ya işçilərin (yaxud ştatların) sayının ixtisar edilməsi nəticəsində əmək müqaviləsinə xitam verilmiş şəxslərə azı 3 il sığorta stajına malik olduqda işsizlikdən sığorta ödənişinin təyin olunması nəzərdə tutulur. Yeni layihədə bu müddətin 3 ildən 1 ilədək azaldılması təklif olunur.

Həmçinin layihədə müddətli əmək müqaviləsinin müddətinin bitməsi əsasında əmək müqaviləsinə xitam verilmiş şəxslərə də sığorta ödənişinin təyin olunması təklif yer alır.

Eləcə də işsizlikdən sığorta ödənişinin hesablanması, işsizlikdən sığorta ödənişlərinin elektron qaydada təyinatı və s. ilə bağlı təkliflər də layihədə əksini tapır.

# "Əlilliyi olan şəxslərin reabilitasiyası qaydası"nın layihəsi hazırlanıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Əlilliyi olan şəxslərin reabilitasiyası qaydası"nın layihəsi hazırlanıb və razılaşdırma mərhələsindədir.**

Nazirlikdən hafta.az-a verilən xəbərə görə, "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Qanunun 10.6-cı maddəsinə əsasən hazırlanmış layihədə abilitasiya, yəni əlilliyi olan şəxslərin mövcud potensialını maksimum inkişaf etdirməklə, onların sərbəst yaşamaq imkanlarının artırılması ilə bağlı münasibətlər tənzimlənir.

Layihədə abilitasiya tədbirlərinin Nazirliyin tabeliyində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Tibbi-sosial ekspert komissiyaları (TSEK) tərəfindən hazırlanaraq təsdiq edildiyi bildirilir. Qeyd edilir ki, abilitasiya tədbirləri abilitasiya üçün potensial imkan və qabiliyyətlərin qiymətləndirilməsi, abilitasiya nəticələrinin proqnozlaşdırılması və abilitasiya tədbirlərinin müəyyən edilməsi kimi mərhələləri əhatə edir. Əlilliyin müəyyən edilməsindən sonra 10 iş günü ərzində əlilliyi olan şəxsin və (və ya) onun qanuni nümayəndəsinin əks əlaqə vasitələrinin birinə abilitasiya tədbirlərinin hazırlanması üçün vaxt və yer barədə məlumat göndərilir. Əlilliyi olan şəxs əlilliyi ilə əlaqədar gələ bilmədiyi hallarda abilitasiya tədbirləri onun yaşadığı yerdə hazırlanır. Bu tədbirlər hazırlanarkən əlilliyi olan şəxslərin və onların qanuni nümayəndələrinin də fikirləri nəzərə alınır. Hazırlanmış abilitasiya tədbirləri Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sistemində (MEİS) daxil edilir. Bildirilir ki, abilitasiya tədbirləri əlilliyi olan şəxslərə münasibətdə ildə bir dəfə, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara münasibətdə isə 6 ayda bir dəfə aparılmış tədbirlərin effektivliyi və hər hansı əlavə və dəyişikliklərin edilməsi zərurətinin olub-olmaması baxımından yenidən nəzərdən keçirilir. TSEK əlilliyi olan şəxsin özünə və (və ya) onun qanuni nümayəndəsinə abilitasiya tədbirlərinin məqsədi, vəzifəsi, proqnozu, sosial-hüquqi səmərəsi və gözlənilən nəticələr barədə məlumat verməlidir. Layihədə bu tədbirlərin müddətində əlilliyi olan şəxsin sağlamlığında mövcud olan və əlilliyə səbəb olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntularının ağırlıq dərəcəsindən asılı olaraq TSEK tərəfindən müəyyən edildiyi də əksini tapır.

**Hafta.az**

# Yeni Günəşlidə ağaclar yandırılır

***Paytaxtın Suraxanı rayonu Yeni Günəşli qəsəbəsində, xüsusilə də AB massivində Qartalın heykəlinin yanından Kərpic Zavodina gedən yolun sol kənarında salınmış şam və küknar ağaclarından ibarət yaşıl örtük göz oxşayır, qəsəbəyə xüsusi gözəllik verirdi. Son illərdə həmin ərazi baxımsız qalıb Üstəlik, alaq otları vurulmadığından, hər il adıçəkilən ərazi yandırılır, çoxlu sayda ağac tələf olur.***



Qeyd edək ki, sözügedən ərazidə yanğın hadisəsi təd-ricən baş verir. Yenə də həmin ərazidə bir neçə yerdə yanğın hadisəsi baş verib.

"Həftə içi"nin əməkdaşı olaraq yolumuzu həmin ünvandan saldıq. Şir heykəlinə yaxın olan ərazidə, AB Yaşayış Sahəsi, Abbas Fətəliyev küçəsi, 8 blokdan ibarət 129 saylı binanın arxa həyətində asfalt yoluna qədər böyük bir sahə yandırılıb, nə qədər ağaca ziyan dəyib. 135 A saylı binanın arxa tərəfində isə yanğın daha çox ərazini əhatə edib, xeyli miqdarda ağac və kol bitkiləri yanaraq tələf olub.

Sıx şam və küknar ağaclarından ibarət olan sahə isə tamamilə yandırılıb. Yanmış və yerə yıxılmış ağaclar, hətta ərazidə qalıb. Qeyd edim ki, həmin binanın ətrafı da natəmizlik içindədir. Məişət və tikinti materiallarının tullantılarına kimi ağacların dibinə atıblar. Digər ərazilərdə də yanmış sahə var idi.

Sakinlər bildirdilər ki, sözügedən əraziyə 68 saylı Mənzil Kommunal İstismar Sahəsi nəzarət edir: "MKİS-nin işçiləri tərəfindən ərazi nə alaq otlarından təmizlənir, nə də onlara su verilir. Bu səbəbdən də ərazi yandırılır. Hər il ərazini alaq otlarından təmizləmək əvəzinə, od vurub yandırırlar. Qartal heykəlinin yanından 24 saylı Birləşmiş Şəhər Xəstəxanasına qədər yolboyu ucu-bucağı görünməyən böyük ərazini əhatə edən küknar və şam ağaclarından ibarət yaşıl zolaq, sanki məşəliyi xatırladırdı. Yayda yaşıllıq əraziyə sərinlik gətirir, təmiz hava yaradır. Digər tərəfdən, ağaclar Asfalt Zavodunun ərazisindən gələn tozun qarşısını alırdı. İndi isə həmin yaşıllıqdan əsər-əlamət belə qalmayıb. İki gün bundan öncə gəlib ərazini yandırdılar. Alov binanın yuxarı mərtəbələrinə kimi qalxırdı. Yanğınsöndürənlər özlərini vaxtında çatdırmasaydılar, ərazidə bir dənə də olsun yaşıl ağac qalmayacaqdı, hətta ətraf binalar da yana bilərdi".



Sakinlər dedilər ki, bu gün də yanğın hadisəsi baş verib. Axşam saat 9 radələrində ərazi məlum olmayan adamlar tərəfindən yandırılır. Aidiyyəti qurumlar gəlib maraqlanmırlar: "Heç olmasa, gəlib ərazini təmizləmirlər, suvarmırlar ki, ağaclar tamamilə qurumasın.

Yanmayan ərazilərdə alaq otları dizə çıxır. Əgər belə getsə, bir tədbir görülməsə, təmizlik işləri aparılmasa, qurumuş otlar vurulmasa, yerdə qalan ərazini də yanğın təhlükəsi gözləyə bilər. Bu irilikdə ərazi yanıb, aidiyyəti qurumlar, eləcə də ekologiyamıza nəzarət edən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin səlahiyyətli nümayəndəliyi maraqlanıb, bir tədbir görmürlər".

Məsələ ilə bağlı 68 saylı Mənzil Kommunal İstismar Sahəsinə getdik. MKİS-in rəisi Mehbalı müəllim bu barədə məlumatı olduğunu bildirdi. Rəisin sözünə görə, hətta polisə kimi məlumat verilib.

Qaraçuxur Qəsəbə Nümayəndəliyindən yanğınla bağlı onlara məlumat daxil olmadığını söylədilər.

*✍ Qələndər Xaçınçaylı*

# Nəsimi rayonunda Səhiyyə İşçiləri Günü münasibətilə videomüşavirə keçirilib

**Nəsimi rayonunda Səhiyyə İşçiləri Günü münasibətilə videomüşavirə keçirilib. Rayonda yerləşən səhiyyə müəssisələri rəhbərlərinin iştirakı ilə keçirilən videomüşavirəni RİH başçısı Asif Əsgərov açaraq, səhiyyə işçilərini peşə bayramları günü münasibətilə təbrik etdi, onlara ən xoş arzularını bildirərək çətin və şərəfli işlərində uğurlar arzuladı.**



Bildirdi ki, Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi ilə 1970-1980-ci illərdə Azərbaycanda yüzlərlə iri səhiyyə obyektləri inşa olundu. Həmin illərdən başlayaraq səhiyyədə ciddi inkişaf dövrü başlandı. Səhiyyəni cəmiyyət və dövlət həyatında ən mühüm sahə kimi qiymətləndirən Ulu öndər Heydər Əliyev ikinci dəfə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da tibb sahəsində bir sıra islahatlar həyata keçirildi.

Ümummilli lider Heydər Əliyevin 2001-ci ildə imzaladığı Sərəncamla Səhiyyə İşçiləri Gününün təsis edilməsi onun həkimlik sənətinə münasibətini, tibb işçilərinin zəhmətinə yüksək dəyər verdiyini göstərir.

İndi səhiyyəmizin hər ili, hər ayı irəliləyişlə, yeni-yeni uğurlarla yadda qalır. Müşavirədə vurğulandı ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə müasir tibb ocaqları tikilir, ehtiyacı olan səhiyyə müəssisələri bərpa olunaraq müasir avadanlıqlarla təmin edilir. Səhiyyə sisteminin inkişafı, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsi daim diqqət mərkəzindədir.

Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi strateji siyasət kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin həyata keçirdiyi sosial siyasət nəticəsində dövlət büdcəsindən səhiyyəyə ayrılan vəsait ildən-ilə artırılır.

Bu da tibb müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına, ümumilikdə tibbi xidmətin müasir tələblər səviyyəsinə qaldırılmasına yeni imkanlar açır. Dövlət başçısının səhiyyəmizə diqqət və qayğısı, Azərbaycan xalqının sağlamlığının qorunması, yolunda atdığı mühüm addımlar, ümumiyyətlə, ölkədə həyata keçirilən sosialyönümlü siyasət Ulu öndərin bu istiqamətdə müəyyən etdiyi strategiyanın uğurla davam etdirilməsinin parlaq təzahürüdür.

Müşavirədə dünyanı bürümüş koronavirus COVİD-19 pandemiyası ilə mübarizədə Azərbaycan həkimlərinin, o cümlədən rayon ərazisində fəaliyyət göstərən səhiyyə müəssisələrində çalışan tibb işçilərinin fədakarlığı xüsusi vurğulandı.

Natiq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə "Əməkdar həkim" fəxri adlarına layiq görülmüş - Abbasova Nəzakət Salah qızını, Tağıyeva Ziyafət Teymur qızını, Əsədov Çingiz Daşdəmir oğlunu və "Tərəqqi" medalı ilə təltif edilmiş Əliyeva Nərgiz Rafiq qızını təbrik edərək onlara gələcək fəaliyyətlərində yeni-yeni uğurlar və nailiyyətlər arzuladı.

Tədbirdə çıxış edənlər - 5 saylı şəhər poliklinikasının şöbə müdiri Nəzakət Abbasova, Kliniki Tibbi Mərkəzin yoluxucu şöbəsinin müdiri Ziyafət Tağıyeva, Talassemiya Mərkəzinin həkimi Nərgiz Əliyeva və Kliniki Tibbi Mərkəzin baş həkiminin müavini Məhəbbət İbrahimova və digərləri səhiyyə işçilərinə göstərilən diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Azərbaycan Respublikasının Birinci vitse-ptrezidenti Mehriban Əliyevaya öz dərin minnətdarlıqlarını bildirdilər.

*✍ Hafta.az*

# Qusarda oğurluq edən şəxslər tutulub

**Qusarda oğurluq edən şəxslər tutulub. DİN Mətbuat Xidmətinin Quba rayonunda regional qrupundan hafta.az-a verilən məlumata görə, Qusar Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində yerləşən fərdi yaşayış evlərin birindən bir ədəd kompüter dəsti və ona aid aksessuarlar, bir ədəd televizor, bir ədəd ütü, eləcə də müxtəlif növ tikinti təmir alətləri oğurlamaqla zərərçəkmişə ümumilikdə 2538 manat maddi ziyan vuran iki şəxs saxlanılıb.** Araşdırmalarla onların rayon sakinləri Şahmir Ağamirov və Rəsul Savziyev olduqları müəyyən edilib.



Dindirilmə zamanı hər iki şəxs törətdikləri oğurluq hadisəsini etiraf edərək, yaşayış evinə gecə saatlarında qanunsuz olaraq daxil olduqlarını və cinayət yolu ilə əldə etdiyi əşyaları Şahmir Ağamirova məxsus "Niva" markalı nəqliyyat vasitəsinə yükləyərək hadisə yerindən uzaqlaşdıqlarını bildiriblər. Oğurlanan əşyalar polis əməkdaşları tərəfindən maddi sübut kimi onlardan götürülüb. Qeyd olunan faktla bağlı Qusar RPŞ-nin İstintaq Bölməsində Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi açılıb, həmin şəxslərin başqa cinayət hadisələrində iştirak edibetməmələri araşdırılır.

*✍ Hafta.az*

# Çirkli əllərlə gözə toxunmaq virusa yoluxma ehtimalını artırır



**Özünü nə qədər qorusan, maska taxsan da, çirkli əllərlə gözə toxunmaqla da virusa yoluxa bilərsən. Həmin riski azaltmaq üçün yuyulmamış əllərlə nəinki gözlərə, ağız və buruna da toxunmaq olmaz.**

COVID-19-un gözlərdə yaratdığı təhlükə barədə Bakı Baş Səhiyyə İdarəsinin baş oftalmoloqu Sevda Bəşirova deyib: "Gözlərin koronavirusa qarşı giriş qapısı olması barədə faktlar var. İnfeksiyaya yoluxma nəticəsində gözlər qızarır, yaş və çox az miqdarda ifrazat gəlir, işıqdan qamaşır, yad cisim hissiyyatı olur. Bu əlamətlər gözlərdə viral konyunktivit olması şübhəsi doğurur. Ona görə də çirkli əllərlə göz, ağız və buruna toxunmamaq lazımdır". Həkim onu da qeyd edib ki, koronavirusun keçiriciliyi də çox yüksəkdir. Ətrafda öskürən, asqıran və hərarəti olan varsa, yoluxma ehtimalı da artır və belə şəraitdə çirkli əllərlə virusun gözə düşmək ehtimalı da yüksəlmiş olur.

# Karantin qaydalarını pozan şöbə rəisi işdən çıxarıldı




**Yeni növ koronavirus (COVID-19) infeksiyasının yayılma sürətinin azaldılması, habelə onun törədə biləcəyi fəsadların minimuma endirilməsi məqsədilə "Azəriqaz" İstehsalat Birliyində xüsusi karantin rejiminin qaydalarına ciddi əməl olunur.**

Qurumdan hafta.az-a verilən məlumata görə, həm əsas inzibati bina, həm də bütün struktur bölmələrin fəaliyyət göstərdiyi binalarda giriş-çıxış qaydaları ciddi nəzarətdə saxlanılır. Bundan başqa mütəmadi dezinfeksiya tədbirləri görülür, işçilərin qoruyucu maskalarla təminatı, giriş-çıxış məntəqələrində insanların bədən temperaturunun ölçülməsi və digər zəruri prosedurlar icra olunur.

Buna baxmayaq, bəzi hallarda təlimat qaydalarını pozan işçilərə də rast gəlinir və dərhal bu barədə müvafiq cəza tədbirləri görülür. Pandemiya dövründə koronavirus (COVID-19) infeksiyasından qorunma tədbirlərinin həyata keçirilməsində məsuliyyətsiz davrandığına görə "Azəriqaz" İstehsalat Birliyinin Bakı Regional Qazın Satışı Departamentinin Təhlükəsizlik, ekologiya və keyfiyyətə nəzarət şöbəsinin rəisi vəzifəsindən azad olunub. O, daha aşağı vəzifəyə - Təmir-tikinti İdarəsinin 104 "Çağrı Mərkəzi"nin 1 saylı çağrı xidmətində usta vəzifəsinə keçirilib.

"Azəriqaz" İstehsalat Birliyinin rəhbərliyi bir daha bildirir ki, qurumda pandemiya dövrünün tələb və qaydalarını pozan istənilən işçi sərt formada cəzalandırılacaq.

# Banklardan vaxtı bitən kartlarla bağlı yeni qərar

**Azərbaycan Mərkəzi Bankı (AMB) koronavirus (COVID-19) pandemiyasına qarşı mübarizə çərçivəsində insanların kütləvi toplanış və təmas yerlərinin, eləcə də bununla əlaqədar olan işlərin, proseslərin minimallaşdırılması istiqamətində daha bir addım atıb.**

AMB-dən verilən məlumata görə, bankların filial və şöbələrində, eləcə də bankomatların qarşısında vətəndaş sıxlığının idarə olunması məqsədilə əmək pensiyalarının, sosial müavinət, təqaüd və kompensasiya ödənişlərinin, eləcə də ünvanlı dövlət sosial yardımları üzrə istifadə müddəti başa çatan aktiv müştərilərin ödəniş kartlarının istifadə müddətinin 30 sentyabr 2020-ci il tarixinədək artırılması üçün Mərkəzi Bankı tərəfindən müvəkkil banklara müraciət olunub. Həmin müraciət müvəkkil banklar tərəfindən təmin olunaraq müvafiq ödəniş kartlarının istifadə müddəti avtomatik olaraq uzadılıb. Eyni zamanda, Mərkəzi Bank tərəfindən banklara müştərilərin istəyi ilə yeni emissiya edilmiş ödəniş kartlarının bankların texniki imkanları və təhlükəsizlik tələbləri nəzərə alınmaqla kuryer vasitəsilə ünvana çatdırılması xidmətlərinin göstərilməsi də tövsiyə olunub.

*✍ Hafta.az*

# İqtisadiyyat nazirinin müavini iri ticarət mərkəzlərinin rəhbərləri ilə görüşüb

**Azərbaycan İqtisadiyyat Nazirliyinin tabeliyində olan Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) təşkilatçılığı və İqtisadiyyat nazirinin müavini Niyazi Səfərovun iştirakı ilə paytaxt Bakıda, eləcə də digər şəhər və rayonlarda fəaliyyət göstərən iri ticarət mərkəzlərinin rəhbərləri və menecerləri ilə onlayn görüş keçirilib.**



Nazirlikdən hafta.az-a verilən məlumata görə, İqtisadiyyat Nazirliyinin tabeliyində Dövlət Vergi Xidmətinin, KOBİA-nın və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) nümayəndələrinin iştirak etdiyi onlayn görüşdə iri ticarət mərkəzlərinin fəaliyyəti zamanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Nazirlər Kabineti yanında Operativ Qərargahın müəyyənləşdirdiyi zəruri sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə, ticarət və xidmət sahələrində koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması profilaktikasına dair metodiki göstərişlərə ciddi əməl edilməsi, bu məqsədlə ticarət obyektlərində işçilər və müştərilər üçün lazımi şəraitin yaradılması, iş və xidmət sahələrinin qoruyucu vasitələrlə (əlcək, tibbi maska, dezinfeksiyaedici materiallar və s.) təmin olunması bir daha sahibkarların diqqətinə çatdırılıb. Qeyd edilib ki, metodiki göstərişlər KOBİA və İnternet Vergi İdarəsindəki (<www.e-taxes.gov.az>) elektron kabinet vasitəsilə də sahibkarlara göndərilib. Görüşdə həmçinin, koronovirus pandemiyası ilə əlaqədar iri ticarət mərkəzlərinin qarşılaşdıqları çətinliklər və onların həlli istiqamətində müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*✍ Hafta.az*

# Metroda maskasızlar cərimələndilər

**Bakı metropoliteninin ayrı-ayrı stansiyalarında sosial məsafəni gözləməyən, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən istifadə etməyən sərnişinlər qanunvericiliyə uyğun olaraq, inzibati məsuliyyətə cəlb olunublar.**



Metropolitenində polis şöbəsinin və inzibati ərazilərdə xidmətə cəlb olunan əməkdaşlardan ibarət naryad qrupları stansiyaların girişlərində, platformalarında, mövcud preventiv tədbirlərə əməl etməyən şəxslərlə profilaktiki söhbətlər aparıblar.

Üzərində maskası olmayan sərnişinlərə maskalar paylanılıb, maskadan düzgün istifadə etməyən, polis gördükdə dərhal "maskadan istifadə edirəm, maskam var" deyən şəxslərə koronavirus infeksiyasının fəsadları izah olunub.

Qeyd edək ki, qanunvericiliyə görə, qapalı məkanlarda maska taxmaq məcburidir. Maska taxmaq tələbini pozan fiziki şəxslər 50, vəzifəli şəxslər 100, hüquqi şəxslər 200 manat cərimə tətbiq olunur. Bu xətanın artıq bir dəfə inzibati tənbeh almış şəxs tərəfindən təkrar törədilməsinə görə fiziki şəxslər 100 manat, vəzifəli şəxslər 200 manat, hüquqi şəxslər 400 manat məbləğində cərimələnir.

*✍ Hafta.az*

# Bizim üçün ən çətin dövr başlayır

***"Azarkeşlərimizin hər birini təbrik edirəm. Onlar, bəlkə də, bizdən çox bu çempionluğu gözləyirdilər". Bunu "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanov deyib. Koronavirus pandemiyası səbəbindən Premyer Liqada 2020/21 mövsümünün erkən başa çatdırılmasına münasibət bildirən çalışdırıcı komandasının çempion elan olunması barədə klubun mətbuat xidmətinə fikirlərini bölüşüb:***



"Mövsümün əvvəlində qarşımıza çempionluq hədəfi qoymuşduq. Baxmayaraq ki, Premyer Liqanın yekunlaşmasına bir neçə tur qalmış çempionat dayandırıldı. İkinci pillə ilə aramızda 8 xal fərq var idi və çempion olmaq şansımız çox idi. Buna uyğun da AFFA İcraiyyə Komitəsi çempionatın dayandırılmasına və qalibi müəyyənləşdirməyə qərar verdi".

Qurbanov çempionluq münasibətilə futbolçularını təbrik edib: "Ardıcıl 7 il çempion olmaq çox yaxşı göstəricidir. Neçə ildir bu komandadayam, klub rəhbərliyi, futbolçularla və işçilərlə tək fikrimiz düzgün iş qurmaqdır. Bunu da klubda hər kəs dərk edirdi, bu stabillikdə hamının əməyi var. Bu çempionluğu qeyd etmək hamının haqqı idi, hamını təbrik edirəm. Dəfələrlə demişəm ki, hər bir uğur əldə etdikdən sonra bizim məsuliyyətimiz daha da çoxalır. Bu çempionluğun özəl bir yeri var, ardıcıl 7-ci dəfə Azərbaycanda çempion olduq. Baxmayaraq ki, ağır dövrdür, çətinliklər çoxdur. Biz də öz işimizi dövlətin müəyyən etdiyi qaydalar çərçivəsində, həm də öz peşəkarlığımızla görməyə çalışırıq". Ağdam klubunun baş məşqçisi qarşıdakı zamandan düzgün istifadə etməyə çalışacaqlarını əlavə edib:

"Düzdür, sıxıntılarımız olacaq, komanda uzun müddətdir rəsmi oyunlara çıxmır. Və avqustun 17-də Çempionlar Liqasının təsnifat mərhələləri başlayır. O vaxta qədər düzgün plan qurmalıyıq. Çempionat başa çatsa da, bizim üçün ən çətin dövr başlayır. Həm transfer dönəmi başlayır, həm də rəsmi oyunlarsız Çempionlar Liqasının təsnifat mərhələsinə hazırlaşmağa daha çox vaxt sərf eləmək lazım olacaq. Bu pandemiya bütün dünyada yayılıb. Hər bir halda çalışacağıq ki, düşdüyümüz situasiyanı qəbul edib bu vəziyyətdə düzgün hazırlaşaq və mövqe tutaq".

# Azərbaycan Premyer Liqası dayandırıldı




**Azərbaycan Premyer Liqasında oyunların təşkilində bu və ya digər şəkildə iştirak edən şəxslərin sağlamlığının qorunması nəzərə alınaraq, 2019/2020-ci il mövsümü üçün Azərbaycan Premyer Liqası dayandırılıb. Bu barədə AFFA-nın İcraiyyə Komitəsinin videokonfrans formatında keçirilən iclasında qərar verilib.**

Qərara görə, COVID-19 qlobal pandemiyası ilə əlaqədar yaranmış mövcud vəziyyət, infeksiyanın yoluxma statisitikasının yüksəlməsi, ölkə ərazisində karantin rejiminin 2020-ci il iyulun 1-dək uzadılması ilə bağlı klubların məşq keçməsi üçün vaxt azlığı, klubların ehtimal olunan maliyyə çətinliyi, pandemiya dövründə Nazirlər Kabineti yanında Operativ Qərargahın qəbul etdiyi müvafiq qərarlar və verilən tövsiyələr və ən əsası, futbolçuların, məşqçilərin və Azərbaycan Premyer Liqasında oyunların təşkilində bu və ya digər şəkildə iştirak edən şəxslərin sağlamlığının qorunması nəzərə alınaraq, 2019/-2020-ci il mövsümü üçün Azərbaycan Premyer Liqası dayandırılsın. Mövsümün qalibi və UEFA-nın klub yarışlarında iştirak edəcək komandalar hazırkı turnir cədvəlinə uyğun olaraq müəyyənləşdirilsin (11 səs lehinə, 1 səs əleyhinə).

2020/2021-ci il mövsümündə ölkədaxili futbol yarışlarının keçirilməsi və milli komandaların təlim-məşq toplanışları üçün təqvim planının hazırlanması məqsədilə İşçi Qrup yaradılsın.

COVID-19 qlobal pandemiyası ilə əlaqədar cari lisenziyalaşdırma mövsümündə klublara müvafiq maddi cərimələrin tətbiq olunmaması ilə bağlı AFFA rəhbərliyi tərəfindən irəli sürülən təklif qəbul olunsun. 2019/2020-ci il mövsümündə iştirak edən heç bir komanda Azərbaycan Premyer Liqasını tərk etməsin.

# Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi - Cövdət Hacıyev

**Azərbaycanın zəngin musiqi mədəniyyəti tarixində şərəfli yer tutmuş böyük şəxsiyyətlərdən biri də Cövdət Hacıyevdir. Onun milli və dünya musiqi sənəti ənənələrinin novatorcasına vəhdətində insanın mənəvi gözəlliyini tərənnüm edən yaradıcılığı daim özünün yüksək vətəndaşlıq qayəsi və dərin estetik məzmunu ilə səciyyələnib.**



Görkəmli Azərbaycan bəstəkarı, tanınmış ictimai xadim və pedaqoq, SSRİ Dövlət mükafatları laureatı, Xalq artisti, professor Cövdət Hacıyevin anadan olmasından 103 il ötür. Cövdət Hacıyev 1917-ci ildə Şəkidə anadan olub. O, orta təhsilini başa vurduqdan sonra 1935-1938-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında, 1938-1941-ci illərdə isə Moskva Konservatoriyasında oxuyub və müharibə illərində yarımçıq qalmış təhsilini sonralar davam etdirərək, 1947-ci ildə bəstəkar Dmitri Şostakoviçin sinfini bitirib. 1947-ci ildən ömrünün sonuna qədər bəstəkarlıq fəaliyyəti ilə yanaşı, Azərbaycan Dövlət Konservatoriyasında dərs deyib, 1957-1969-cu illərdə isə bu ali musiqi təhsil ocağının rektoru vəzifəsində çalışıb. Azərbaycanda musiqi simfoniyasının banilərindən biri olan C.Hacıyev yaratdığı simfoniyalarda, "Sülh uğrunda" simfonik poemasında öz dövrünün ən mühüm problemlərinə toxunaraq onları lirik-dramatik tərzdə əks etdirib. Qara Qarayevlə birgə bəstələdiyi "Vətən" operası, kamera-instrumental və fortepiano əsərləri də C.Hacıyev yaradıcılığında əhəmiyyətli yer tutur. O, hələ tələbəlik illərində ilk böyük əsəri olan bir hissəli "Simfoniya"nı, iki simfonik poemasını, "Azərbaycan süitası"nı simli kvartet və sair əsərlərini bəstələyib. 1945-ci ildə Qara Qarayevlə birlikdə yazdığı "Vətən" operasına görə SSRİ Dövlət mükafatına layiq görülüb.

Bəstəkar ümumilikdə səkkiz simfoniya müəllifidir. Onun simfonik musiqisini qəhrəmanlıq motivləri, humanizm, insanın mənəvi gözəlliyinin tərənnümü səciyyələndirir. O, bu simfoniyalarda Azərbaycan xalq musiqisinin müxtəlif janrlarının bədii ifadə vasitələrindən, inkişaf prinsiplərindən məharətlə istifadə edib. Cövdət Hacıyev, həmçinin simfoniyetta, oratoriya, ballada, sonata, skerso və kvartet poemanın, xor üçün bir sıra dəyərli əsərlərin müəllifidir.

Cövdət Hacıyevin "Zirvələrə" adlanan altıncı və "Şəhidlər" adlı yeddinci simfoniyaları sənətkarın vətəndaşlıq mövqeyinin parlaq ifadəsidir. "Şəhidlər" simfoniyası Azərbaycanın müstəqilliyi uğrunda canlarını qurban vermiş şəhidlərin xatirəsinə həsr olunub. "Onu zaman seçib" adlı səkkizinci simfoniyası ulu öndər Heydər Əliyevə həsr olunub. Azərbaycan bəstəkarlıq məktəbinin inkişafında böyük rol oynamış Cövdət Hacıyev Azərbaycanda peşəkar musiqi kadrlarının hazırlamasında da misilsiz xidmətlər göstərib. O, Azərbaycan bəstəkarlarının bir neçə nəslini yetişdirmiş gözəl pedaqoq olub.

Cövdət Hacıyevin Azərbaycan musiqi mədəniyyətinin inkişafı və təbliğindəki xidmətləri yüksək qiymətləndirilib. O, iki dəfə SSRİ Dövlət mükafatına layiq görülüb, bir çox orden və medallarla, o cümlədən Azərbaycan Respublikasının ali mükafatı - "Şöhrət" ordeni ilə təltif olunub. Prezidenti İlham Əliyevin 2017-ci il fevralın 7-də imzaladığı Sərəncama əsasən Cövdət Hacıyevin 100 illik yubileyi ölkəmizdə geniş qeyd olunub. Cövdət Hacıyev 2002-ci ilin yanvarın 18-də ömrünün 85-ci ilində vəfat edib.

# 172 obyektdə sanitar-epidemioloji tələblər pozulub



**Sahibkarlıq subyektlərində monitorinqlər davam edir.** İqtisadiyyat Nazirliyindən hafta.az-a verilən məlumata görə, xüsusi karantin, zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji tələblərə əməl edilməsinə nəzarət məqsədilə iyunun 17-də keçirdiyi növbəti monitorinqlərdə Binəqədi rayonunda "Ləzzət şirniyyat" mağazasında, "Taksim kabab"da, "Şəki kafesi"ndə, "Azəri med" MMC-yə məxsus "Aptek"də, Yasamal rayonunda "Rokol tikinti materialları" mağazasında, Fərid Abuzərliyə məxsus "Lombard"da, Nəsimi rayonunda "İnci mağazası"nda, "Moskva kitab evi"ndə, "Ekstra brend" mağazasında, Xətai rayonunda "Oba market"də, "Tikinti materillarI" mağazasında, Murad Orucova məxsus "Şərab evi"ndə, Səbail rayonunda Rəşad Rəhimliyə, Elvin Həmidova məxsus pərakəndə ticarət obyektlərində, Nizami rayonunda Aqşin Osmanova məxsus "Qab Qacaq" mağazasında, Gəncə şəhərində "Qala kosmetika" mağazasında, "Tombik kafe"də, Abşeron rayonunda "Yaşıl ada" ictimai iaşə obyektində, Qoşqar Sadıqova məxsus "Dönər evi"ndə, Ruslan Beynəlzadəyə məxsus "Köz dönəri"ndə, Ramin İbrahimova məxsus "Atelye xidmət"də, Ağdaş rayonunda "1-ci supermarket"də, "Ağdaş İnşaat", "Şirvan İnşaat", "Mango moda", "Polo geyim", "Bogant geyim", "Elay gallery", "Elegant geyim", "Səma hədiyyə", "İdeal hədiyyə", "Çempion market", "Yaşar market", "Ayaqqabı dünyası", "Hədiyyələr" mağazalarında, "Tac dönər"də, "Ağdaş Telekom" xidmət obyektində, "Zeytun-1 Aptek"də, Yardımlı rayonunda Rəvan Həsənova məxsus "Super Market"də, Fərhad Hatəmliyə məxsus "Market"də, Mehman Adıyevə məxsus "Təsərrüfat malları mağazası"nda, Müşviq Bədirova məxsus "Market"də, Hamlet Əməşova məxsus "Market"də, Oğuz rayonunda "Maqnolia Kafesi"ndə, Nurlan Mahmudzadəyə məxsus "Ailəvi Dönər"də, Füzuli rayonunda "Kişi və Qadın geyimləri" mağazasında, Samir Fərzəliyevə məxsus "Kafe"də, Nəriman Əmirova məxsus "Bərbərxana"da, Xaçmaz rayonunda "Esko mağazası"nda, Mehdi Abdullayevə məxsus "Çörək sexi"ndə, "Anar kafesi"ndə, İsmayıllı rayonunda "Elşad Market"də, "Həyat Market"də, "Soliton" mağazasında, "Basqal Restoran"da, "Dost Qapısı" ictimai iaşə obyektində, ümumilikdə monitorinq keçirilmiş 364 obyektdən 172-də zəruri sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə əməl olunmaması hallarına rast gəlinib.

Monitorinqlər zamanı sahibkarlarla maarifləndirici söhbətlər aparılıb, xüsusi karantin, zəruri sosial davranış qaydalarına və sanitar-epidemioloji tələblərə tam əməl olunması, qabaqlayıcı profilaktik tədbirlərin görülməsi zərurəti bir daha diqqətə çatdırılıb. Qeyd edək ki, mayın 22-dən iyunun 18-dək monitorinq aparılmış 6813 sahibkarlıq subyektindən 2995-də zəruri sosial davranış qaydaları və sanitar-epidemioloji tələblərin pozulması halları aşkarlanıb.

✍ ***Hafta.az***

MƏDƏNİYYƏT

# Tağıyevin ev-muzeyi bərpadan sonra açıldı

**AMEA Milli Azərbaycan Tarixi Muzeyinin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı həyata keçirilən tədbirlər çərçivəsində bu qurumun nəzdində fəaliyyət göstərən Hacı Zeynalabdin Tağıyevin ev-muzeyinin bərpa və yenidənqurma işlərindən sonra açılışı olub.**



Akademiyadan hafta.az-a verilən məlumata görə, tanınmış sahibkar və xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin vaxtilə yaşadığı sarayda yerləşən Milli Azərbaycan Tarixi Muzeyi onun zəngin irsinin öyrənilməsi və populyarlaşdırılması istiqamətində xeyli işlər görür, kitablar nəşr etdirir, müxtəlif tədbirlər keçirir.

Xatirə muzeyinin yeni ekspozisiyasında iriölçülü ekranda H.Z.Tağıyevin sahibkarlıq və ictimai fəaliyyəti, Azərbaycanda və onun hüdudlarından kənarda gördüyü xeyriyyə işləri, ailəsi haqqında Azərbaycan, ingilis və rus dillərində məlumatlar yerləşdirilib. Bundan başqa, yeni ekspozisiyada muzeyin fondlarında qorunan rəsm əsərləri, sənədlər, fotoşəkillər, H.Z.Tağıyevin ordenləri, onun vəsaiti hesabına nəşr olunan kitablar da nümayiş etdirilir.

ŞOU-BİZNES

# 7 illik evlilik karantinə görə bitir



**Dünyaca məşhur müğənni-aktrisa Kelli Klarkson 7 illik prodüser əri Brandon Blekstokla boşanır. Buna səbəb karantin dövründə cütlüyün münasibətlərinin korlanması olub.**

Qərb KİV yazır ki, əslində, cütlük son altı aydır bir-biri ilə tez-tez mübahisə edir, əksər vaxtlarda ayrı evlərdə yaşayır. Lakin küçəyə çıxma qadağasına görə bir arada yaşamağa məcbur olan iki tanınmış şəxs baş verənlərdən sonra ayrılmaq qərarına gəlib.

# Kristen filmdə Şahzadə Dianani canlandıracaq

**Məşhur rejissor Pablo Larrain şahzadə Diananın həyatından bəhs edən film çəkir. O, artıq ekran işinin baş qəhrəmanını oynayacaq aktrisa ilə danışıqlar aparıb.**



Diana obrazını 30 yaşlı Kristen Stüart canlandıracaq. Rejissorun sözlərinə görə, filmdə mərhum şahzadənin bir neçə günlük həyatından bəhs olunacaq. Larrain layihədə bütün diqqəti Uels şahzadəsinin evliliyinin pozulduğu və onun xanımının gələcək kral arvadının statusundan imtina etmək qərarına gəldiyi 1900-cı illərə yönəldib.

İDMAN

# "Çelsi" Timo Vernerin transferini rəsmiləşdirib



**Almaniya milli komandasının və "Leypsiq" klubunun futbolçusu Timo Vernerin "Çelsi"yə transferi rəsmiləşib. İngiltərə təmsilçisi 24 yaşlı hücumçunun keçidini açıqlayıb.**

Vernerlə 5 illik müqavilə imzalanıb. Cari mövsümün sonunadək "Leypsiq"də qalacaq forvard iyulda yeni klubuna qoşulacaq. London klubu Verner üçün 47,5 milyon funt sterlinq ödəyib. Bunun 15 faizi Timonun 2016-cı ilədək oynadığı "Ştutqart"a çatacaq. Hücumçunun özü həftədə, təxminən, 170 min funt qazanacaq. Qeyd edək ki, Verner cari mövsüm Bundesliqanın 32 oyununda 26 qol vurub.

# "Napoli" Dris Mertenslə 2 illik müqavilə imzalayıb



**"Napoli"nin hücumçusu Dris Mertens müqavilə müddətini uzadıb. Bu barədə klub rəsmi saytı vasitəsilə məlumat yayıb.**

Bildirilib ki, Belçika millisinin üzvü cari mövsümün sonuna qədər olan sözləşməsini daha 2 il artırıb. Bu müddətdə futbolçu uğurlu çıxış edərsə, daha 1 il komandada qalacaq.

Qeyd edək ki, 2013-cü ildən "Napoli"nin formasını geyinən Dris Mertens 122 qolla klub tarixinin bombardiridir.

# "Mançester Siti" "Arsenal"ı böyük hesabla uddu



**Koronavirusa görə mart ayından dayandırılan İngiltərə Premyer Liqasında mövsüm bərpa edilib. Hafta.az xəbər verir ki, 28-ci turdan təxirə salınmış iki oyun keçirilib.**

Günün ilk matçında "Aston Villa" "Şeffild Yunayted"i qəbul edib. Oyunda qapılara qol vurulmayıb. Daha maraqla gözlənilən matç isə Mançesterdə olub. Burada "Mançester Siti" "Arsenal"ı qəbul edib. Qarşılaşma "Siti"nin böyükhesablı qələbəsi ilə başa çatıb - 3:0. "Şəhərlilər"in heyətində Rahim Sterlinq (45+1), Kevin de Brüyne, (51) və Fil Foden (90+1) fərqlənib.

Qeyd edək ki, Premyer Liqanın oyunları iyunun 19-dan 30-cu turun görüşləri ilə davam etdiriləcək. Turnir cədvəlinə 82 xalla "Liverpul" başçılıq edir. "Mançester Siti" 60 xalla 2-ci, "Lester" 53 xalla 3-cüdür.